3 aprel 2019 №24 (1609)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Bəstəkar Soltan Hacıbəyovun 100 illik yubileyi qeyd ediləcək

Prezident İlham Əliyev aprelin 1-də görkəmli Azərbaycan bəstəkarı, tanınmış pedaqoq, dirijor və musiqi xadimi Soltan İsmayıl oğlu Hacıbəyovun 100 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.

Sərəncamda qeyd olunur ki, SSRİ Xalq artisti, SSRİ və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, professor Soltan Hacıbəyov xalq sənəti xəzinəsindən və dünya musiqi təcrübəsindən faydalanaraq müxtəlif janrlarda özünəməxsus üslubda epik vüsəti, dərin lirizmi və dolğun məzmunu ilə səciyyələnən qiymətli əsərlər yaradıb. Azərbaycan simfonik musiqisinin təşəkkülü və inkişafında onun mühüm xidmətləri var. Bəstəkar simfoniya, simfonik lövhə və süitaları, həmçinin opera və balet, dram tamaşalarına musiqi, mahnı və romansları ilə Azərbaycanın mədəniyyət xəzinəsini daha da zənginləşdirib. Soltan Hacıbəyov respublikanın mədəni və ictimai həyatında daim yaxından iştirak edib, pedaqoq kimi gənc kadrların hazırlanması istiqamətində uzun illər səmərəli fəaliyyət göstərib.

Sərəncamda Mədəniyyət Nazirliyinə, Bəstəkarlar İttifaqının təkliflərini nəzərə almaqla, Azərbaycan bəstəkarlıq məktəbinin inkişafına layiqli töhfələr vermiş Soltan Hacıbəyovun 100 illik yubileyinə həsr edilmiş tədbirlər planını hazırlayıb həyata keçirmək tapşırılıb.

## Aprel zəfərinin ölməz qəhrəmanları

### "Mən səninləyəm, Ana Vətən" bədii-sənədli filminin təqdimatı keçirildi

Azərbaycan Ordusunun parlaq qələbələrindən olan şanlı Aprel döyüşlərindən üç il ötür. 2016-cı il aprelin 2-də Ermənistan silahlı qüvvələrinin təxribatlarına cavab olaraq, Azərbaycan Ordusu sürətli əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğradaraq, Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin bir hissəsini azad edib.



Aprelin 2-dən 5-dək davam edən döyüşlər müasir hərb tariximizin şanlı səhifəsi oldu. Müzəffər ordumuz Aprel döyüşləri ilə 23 ildən sonra xalqımıza qələbə sevinci yaşatdı. Lələtəpə yüksəkliyində dalğalanan bayrağımız bu zəfərin təcəssümüdür.

Aprel döyüşləri bizim böyük tarixi qələbəmizdir, müasir tariximizdə ən uğurlu hərbi əməliyyatlardan biridir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bu sözləri aprelin 2-də Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin N saylı hərbi hissəsində hərbçilərlə görüşündə deyib.

Aprel döyüşləri zamanı Azərbaycan əsgər və zabitlərinin peşəkarlıq, qəhrəmanlıq göstərdiklərini vurğulayan Ali Baş Komandan deyib: "Aprel döyüşləri hərbi cəhətdən çox uğurlu əməliyyat idi. Çünki əlverişsiz mövqelərdən bizim hərbçilərimiz çox önəmli strateji yüksəklikləri işğalçılardan azad etmişlər. Eyni zamanda, bu döyüşlərin mənəvi-psixoloji baxımdan da böyük əhəmiyyəti vardır. Çünki uzun illər ərzində Ermənistan təbliğatı belə bir mif yaradırdı ki, onlar hərbi cəhətdən bizdən üstündür. Aprel döyüşləri bütün dünyaya göstərdi ki, Azərbaycan Ordusu bu gün ən yüksək keyfiyyətlərə malikdir və istənilən anda istənilən vəzifəni icra edə bilər. Ermənistanın yaratdığı mif tamamilə darmadağın edildi".

Bu sevinci bizə yaşadan igid Vətən övladlarından biri də Əbdülməcid Axundovdur.

Aprelin 2-də Nizami Kino Mərkəzində Mədəniyyət Nazirliyinin dəstəyi, Sumqayıt Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə "Mən səninləyəm, Ana Vətən" bədii-sənədli filminin təqdimat mərasimi keçirildi.

davamı səh. 2-də

## Qan yaddaşımızın unudulmayacaq səhifəsi

Martın 31-də Quba Soyqırımı Memorial Kompleksində Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) A.Bakıxanov adına Tarix İnstitutu, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti və Quba Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə 1918-ci il soyqırımının 101-ci ildönümünə həsr edilmiş konfrans keçirildi.

Tədbirdə Prezident Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva, mədəniyyət naziri Əbülfəs Qarayev, digər rəsmilər, Milli Məclisin deputatları, diplomatik korpusun və dini konfessiyaların nümayəndələri iştirak edirdilər.

Konfrans iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin Quba şəhərinin mərkəzində ucaldılmış abidəsi önünə gül dəstələri düzdülər.

Sonra Quba Soyqırımı Memorial Kompleksinin ərazisində soyqırımı qurbanlarının xatirəsinə ucaldılan abidə ziyarət olundu. Soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla anıldı, ruhlarına dualar oxundu.

Konfrans iştirakçıları Quba Soyqırımı Memorial Kompleksində 31 mart – Azərbaycanlıların Soyqırımı Gününə həsr edilən foto və kitab sərgisinə baxdılar.

davamı səh. 3-də

## Zəngin mədəni irsimizlə "Bölgələrdən bölgələrə"

Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyinin təşkilatçılığı, nazirliyin regional mədəniyyət idarələrinin iştirakı ilə ölkəmizdə ikinci dəfə "Bölgələrdən bölgələrə" yaradıcılıq festivalı keçirilir.

Festivalın məqsədi Azərbaycan xalqının zəngin mədəni irsinin təbliği, bölgələrin mədəni imkanlarının nümayişi, eləcə də regionlararası mədəni mübadiləni gücləndirməkdir. Layihəyə martın 28-də Gəncə şəhərində start verilib.

Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasında "Bölgələrdən bölgələrə" yaradıcılıq festivalının açılış mərasimi keçirilib. Mərasimdə mədəniyyət nazirinin müavini Rafiq Bayramov, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, mədəniyyət işçiləri, ictimaiyyət nümayəndələri, respublikamızın bölgələrindən gəlmiş qonaqlar iştirak ediblər.

Əvvəlcə tədbir iştirakçıları Mədəniyyət Nazirliyinin 15 regional mədəniyyət idarəsi tərəfindən qurulmuş guşələrdə bölgələrin xalq sənətkarlıq nümunələri, ayrı-ayrı sənətkarlar tərəfindən hazırlanmış dekorativ-tətbiqi sənət əsərləri, rəsmlər, suvenirlər və digər əl işləri ilə tanış olublar.

davamı səh. 5-də



## Məşhur nağılçının doğum günü sərgi və tamaşa ilə qeyd edildi

Aprelin 2-də Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında Mədəniyyət Nazirliyinin dəstəyi, F.Köçərli adına Respublika Uşaq Kitabxanasının təşkilatçılığı ilə Beynəlxalq uşaq kitabı günü münasibətilə kitab və rəsm əsərlərindən ibarət sərgi təşkil edilmişdi.

Sərgidə Azərbaycan və dünya uşaq ədəbiyyatından 200-dən çox kitab nümayiş olunurdu. Tədbirə qatılan hər bir uşağa kitabxana tərəfindən dünya uşaq ədəbiyyatı seriyasından kitablar hədiyyə edildi.

səh. 2

## Ölkəmiz ilk dəfə Bolonya Beynəlxalq uşaq kitabı sərgisində təmsil olunur

Ölkəmiz hər il müxtəlif beynəlxalq kitab sərgilərində təmsil olunur.

Mədəniyyət Nazirliyinin dəstəyi ilə Azərbaycan mədəniyyətini, tarixini əks etdirən, yüksək poliqrafik göstəricilərə malik nəşrlər, Azərbaycanın ədəbiyyatı, mədəniyyəti, incəsənəti, qədim tarixi, ölkəmizdə gedən inkişaf prosesləri, Qarabağ həqiqətləri haqqında kitablar Frankfurt, İstanbul, London, Moskva, Budapeşt, Praqa, Minsk, Turin və s. şəhərlərdə keçirilən beynəlxalq sərgilərdə nümayiş etdirilir.




Beynəlxalq sərgilərdə iştirak, həmçinin nəşriyyat və poliqrafiya sahəsində böyük nailiyyətlər qazanmış ölkələrlə təcrübə mübadiləsinə yeni imkanlar yaradır. Sərgi çərçivəsində müxtəlif ölkələrin nümayəndələri ilə görüşlər keçirilir və gələcək əməkdaşlıq imkanları müzakirə olunur.

Bu fəaliyyətin davamı olaraq Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı və ölkəmizin İtaliyadakı səfirliyinin dəstəyi ilə Azərbaycan ilk dəfə olaraq bu il 1-4 aprel tarixində Bolonya şəhərində keçirilən Beynəlxalq uşaq kitabı sərgisində təmsil olunur.

davamı səh. 3-də

## Mirzə Cəlilin 150 illiyi ilə bağlı tədbirlər planı hazırlanıb

Görkəmli yazıçı-dramaturq, publisist, naşir, ictimai xadim Cəlil Məmmədquluzadə (1869-1932) Azərbaycan ədəbiyyatının yeni mərhələyə yüksəlməsində müstəsna rol oynayıb, ayrıca ədəbi məktəb formalaşdırıb.

Yazıçının bədii nailiyyətlərlə zəngin irsində azərbaycançılıq məfkurəsi dövrün ictimai-siyasi fikrinin aparıcı amili kimi dolğun ifadəsini tapıb. Ədibin "Ölülər", "Anamın kitabı", "Dəli yığıncağı" və s. pyesləri Azərbaycan dramaturgiyasının parlaq nümunələridir. Sənətkar həyat həqiqətlərini, ictimai mühiti hərtərəfli əks etdirən və bədii-estetik dəyər daşıyıcısına çevrilən rəngarəng obrazlar qalereyası yaradıb.

Ana dilinin saflığı uğrunda mübarizə aparan Mirzə Cəlil qiymətli nəsr əsərləri, parlaq publisistikası ilə də ədəbi-mədəni və mətbu mühitdə şöhrət qazanıb. Böyük ədibin dühasının məhsulu olan "Molla Nəsrəddin" jurnalı milli oyanışa, yeniləşmə hərəkatına yol açıb, azadlıq ideyalarının inkişafına qüvvətli təsir göstərib.

davamı səh. 2-də

## Faciəmizin "mim" dili

Dövlət Pantomima teatrı illərdir ki, Azərbaycan tamaşaçısına bu unikal janrı sevdirməyə çalışır. Maraqlı repertuarı olan və hər səhnə işində bir ideyanı hərəkət estetikasında ustalıqla təqdim edən teatrın növbəti sənət nümayişinə yığışdıq.

Yaradıcı heyətin fevral ayında Bolqarıstana səfər zamanı uğurla təqdim etdiyi "Xocalı bu olub" tamaşası 31 mart – Azərbaycanlıların Soyqırımı Günü ərəfəsində bu dəfə yerli izləyicilərə göstərildi...

səh. 6

SABAH-ın sənət üfüqləri



səh. 7

UNESCO-nun baş qərargahında "Bakı Prosesi" beynəlxalq işçi qrupunun iclası keçirilib

səh. 4



Xüsusi qayğıya ehtiyacı olan istedadlara dəstək

səh. 8

## UNESCO-nun Dünya İrs Komitəsinin Bakı sessiyasına gələcək əcnəbilər üçün viza prosedurları sadələşdirilib

Prezident İlham Əliyev aprelin 2-də UNESCO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyasında iştirakla əlaqədar ölkəmizə gələcək əcnəbilər üçün viza prosedurlarının sadələşdirilməsi haqqında sərəncam imzalayıb.

Sərəncamda bildirilir ki, UNESCO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyasında iştirak etmək üçün Azərbaycan Respublikasına gələn, UNESCO-nun rəsmi dəvət məktubunu və həmin təşkilatın müvafiq qaydalarına uyğun olaraq akkreditasiyadan keçməni təsdiqləyən sənədi təqdim edən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər 2019-cu il iyunun 20-dən iyulun 10-dək Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında viza ala bilərlər.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə Dünya İrs Komitəsinin 43-cü sessiyasında iştirakla əlaqədar ölkəmizə gələn şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi, habelə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 1 iyun tarixli fərmanının 4.2-ci bəndinə əsasən təsdiq edilmiş ölkələrin siyahısı üzrə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin "ASAN Viza" sistemi vasitəsilə elektron viza almaq imkanı barədə UNESCO-ya və xarici ölkələrin müvafiq orqanlarına məlumat vermək, "ASAN Viza" sistemi vasitəsilə elektron viza almaq imkanı barədə məlumatın nazirliyin, eləcə də Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirliklərinin və konsulluqlarının internet informasiya ehtiyatlarında yerləşdirilməsini təmin etmək tapşırılıb.

Bundan əlavə, Dövlət Miqrasiya Xidməti Azərbaycan Respublikasına uçuşlar həyata keçirən aviasiya şirkətlərinə UNESCO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyasında iştirakla əlaqədar ölkəmizə gələn şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə məlumat verməlidir.

# Mirzə Cəlilin 150 illiyi ilə bağlı tədbirlər planı hazırlanıb

*əvvəli səh. 1-də*

Bu il demokrat ədibin anadan olmasının 150 illiyi tamam olur. Prezident İlham Əliyev yazıçının yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb. Sərəncamın icrasını təmin etmək məqsədilə Mədəniyyət Nazirliyinin əmri ilə tədbirlər planı təsdiq olunub. Sənədə əsasən, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında Cəlil Məmmədquluzadənin 150 illiyinə həsr olunmuş təntənəli yubiley tədbirinin keçirilməsi, həmçinin ölkəmizin mədəniyyət müəssisələrində yubileylə bağlı müxtəlif səpkili tədbirlərin təşkili nəzərdə tutulub.

Yubiley ilində mədəniyyət mərkəzləri, klub və mədəniyyət evlərinin nəzdində fəaliyyət göstərən xalq teatrları tərəfindən yazıçının əsərlərindən ibarət tamaşaların hazırlanması planlaşdırılır.

Tədbirlər planında Avstriya, Fransa və Özbəkistandakı Azərbaycan səfirliklərinin tabeliyində fəaliyyət göstərən mədəniyyət mərkəzləri tərəfindən həmin ölkələrdə ədibin yubileyinə həsr olunmuş tədbirlərin keçirilməsi də yer alıb.

Bakı Xoreoqrafiya Akademiyasında Mirzə Cəlilin yaradıcılığına həsr olunmuş elmi-nəzəri konfrans və dəyirmi masanın təşkili də tədbirlər planına daxildir.

Təhsil Nazirliyinin müəssisələrində yubileylə əlaqədar müxtəlif mövzularda elmi konfrans və fotolardan ibarət sərgilərin təşkili nəzərdə tutulub.

AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda "Cəlil Məmmədquluzadə idealları və müasir dövr" mövzusunda beynəlxalq elmi konfrans, Nəsimi adına Dilçilik İnstitutunda "Cəlil Məmmədquluzadə və Azərbaycan dili" mövzusunda elmi sessiya, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda "Molla Nəsrəddin" jurnalının transliterasiya problemlərinə həsr olunmuş elmi sessiya, Folklor İnstitutunda



"Cəlil Məmmədquluzadə və xalq gülüş mədəniyyəti" mövzusunda elmi konfrans, A.Bakıxanov adına Tarix İnstitutunda "Cəlil Məmmədquluzadənin dövrü və ictimai-siyasi proseslərin başlıca problemləri" mövzusunda respublika konfransı, Fəlsəfə İnstitutunda "Maarifçilik və Cəlil Məmmədquluzadənin sosial-ideoloji görüşləri" mövzusunda respublika konfransı, həmçinin Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində "Bizi deyib gələn və bizimlə qalan Mirzə Cəlil" mövzusunda elmi sessiya keçiriləcək.

Bundan əlavə, Əlyazmalar İnstitutu və Milli Azərbaycan Ədəbiyyatı Muzeyində ədibin həyat və yaradıcılığına və "Molla Nəsrəddin" jurnalına həsr olunan sərgilər planlaşdırılır.

Tədbirlər planına əsasən, yubiley ilində nəşr layihələri də olacaq. "Molla Nəsrəddin" Ensiklopediyası"nın, "Ustad Mirzə Cəlil Məmmədquluzadə" monoqrafiyasının, "Azərbaycan satirik mətbuatında gizli imzalar (1906-1920)" adlı biblioqrafik göstəricinin nəşri nəzərdə tutulur.

Azərbaycan Yazıçılar Birliyinin "Natəvan" klubunda, birliyin bütün filiallarında və Mirzə Cəlilin Bakıdakı ev-muzeyində anım gecələrinin keçirilməsi və s. tədbirlər də sənəddə yer alıb.

# Aprel zəfərinin ölməz qəhrəmanları

*əvvəli səh. 1-də*





Film 2016-cı ilin Aprel döyüşlərində qəhrəmancasına şəhid olan manqa komandiri Əbdülməcid Axundova həsr olunub.

Tədbir iştirakçıları əvvəlcə Aprel şəhidlərinə həsr olunmuş stendə baxdılar.

Mərasimdə öncə Vətən uğrunda canlarını qurban vermiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Tədbirdə çıxış edən Sumqayıt Regional Mədəniyyət İdarəsinin rəisi Mehman Şükürov Aprel döyüşlərində Azərbaycan Ordusunun göstərdiyi qəhrəmanlıqdan danışdı. Bildirdi ki, Dağlıq Qarabağda erməni qəsbkarlarına qarşı döyüşmüş, canından, qanından və sağlamlığından keçmiş insanlar bu gün cəmiyyətimizdə yüksək dəyərləndirilir. Bu döyüşlərdə qəhrəmanlıq göstərən əsgərlərimizdən biri də Əbdülməcid Axundovdur. Təqdim edilən film onun əziz xatirəsinə həsr olunub.

Mehman Şükürov filmin ərsəyə gəlməsi ideyasından söz açdı. Bildirdi ki, şəhidimizin anası Sumqayıtın mədəniyyət ocağında bizimlə birlikdə çalışır.

Gənclər üçün canlı qəhrəman və vətənpərvərlik nümunəsi olan Əbdülməcid Axundovun Vətən qarşısında xidmətlərini daim xatırlamaq, gənc nəslə danışmaq lazımdır.

Sonra ekran əsərinin yaradıcı heyəti təqdim olundu.

Prodüser Xaqani Haşımov, quruluşçu rejissor Elşən Zeynallı və başqaları çıxışlarında film haqqında öz təəssüratlarını bölüşdülər, Aprel döyüşlərinin hərb tariximizdə şanlı qələbələrdən biri olduğunu qeyd etdilər.

Filmdə öz obrazını canlandıran şəhidin anası Ceyran Axundova çıxış edərək filmin yaradıcı heyətinə, tədbir iştirakçılarına təşəkkürünü bildirdi.

Sonra "Mən səninləyəm, Ana Vətən" bədii-sənədli filmi nümayiş olundu.

**Fariz HÜSEYNOV**

## Moskvada kinorejissor Əjdər İbrahimovun yubiley gecəsi

Moskvada SSRİ Xalq artisti, kinorejissor Əjdər İbrahimovun 100 illiyinə həsr edilmiş tədbir təşkil olunacaq.

Rusiya Kinematoqrafçılar İttifaqı, Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyi və ölkəmizin Moskvadakı səfirliyinin təşkilatçılığı ilə aprelin 24-də tanınmış Azərbaycan və Rusiya kinorejissoru, ssenaristi, professor Əjdər İbrahimovun 100 illik yubileyi qeyd ediləcək. Rusiya Mərkəzi Ədiblər Evinin Yazıçılar klubunda keçiriləcək "Məhəbbətim mənim, kədərim mənim" adlı yubiley gecəsini kinoşünas Andrey Şpagin aparacaq.

Gecədə tanınmış incəsənət xadimləri, Əjdər İbrahimovun sənət yoldaşları, tələbələri və yaradıcılığının pərəstişkarları iştirak edəcəklər.

## Görkəmli rejissor və aktyor Rövşən Almuradlı dünyasını dəyişib



Azərbaycan mədəniyyətinə ağır itki üz verib. Görkəmli rejissor və aktyor Rövşən Əziz oğlu Almuradlı 2019-cu il aprel ayının 2-də ömrünün 64-cü ilində vəfat edib.

R.Almuradlının Azərbaycan teatrında, kino sənətində xidmətləri böyükdür. O, ifa etdiyi rollarla, quruluş verdiyi tamaşalarla, çəkdiyi filmlərlə Azərbaycan mədəniyyəti tarixində əbədi olaraq qalacaqdır.

Amansız ölüm onu aramızdan aparsa da, zaman keçəcək, onun bizə miras qoyub getdiyi gözəl sənət nümunələri yaddaşlarda və tarixin səhifələrində yaşayacaqdır.

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Rövşən Almuradlının qəfil vəfatı ilə bağlı yaxınlarına və əzizlərinə dərin hüznlə başsağlığı verir, kədərlərinə şərik olur.

Allah rəhmət eləsin.

## Kəlbəcərin işğal günü ilə əlaqədar tədbir

Aprelin 2-də Azərbaycanın dilbər guşələrindən olan Kəlbəcər rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsinin 26-cı ildönümü tamam oldu.

Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında ildönümü ilə bağlı söhbət-mühazirə təşkil olunub.

Kitabxananın Mədəni-kütləvi tədbirlər şöbəsinin müdiri Qənirə Mustafayeva, kitabxanaçı Şəbnəm Hüseynzadə, Bakı Dövlət Universitetinin, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tələbələri çıxış ediblər. Çıxışlarda Kəlbəcər rayonunun toponimləri, coğrafiyası, əhalisi, tarixi abidələri haqqında geniş məlumat verilib.

Sonra "Kəlbəcərsiz 26 il" adlı kitab sərgisinə baxış keçirilib.

# Məşhur nağılçının doğum günü sərgi və tamaşa ilə qeyd edildi

Aprelin 2-də Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında Mədəniyyət Nazirliyinin dəstəyi, F.Köçərli adına Respublika Uşaq Kitabxanasının təşkilatçılığı ilə Beynəlxalq uşaq kitabı günü münasibətilə kitab və rəsm əsərlərindən ibarət sərgi təşkil edilmişdi.





Sərgidə Azərbaycan və dünya uşaq ədəbiyyatından 200-dən çox kitab nümayiş olunurdu. Tədbirə qatılan hər bir uşağa kitabxana tərəfindən dünya uşaq ədəbiyyatı seriyasından kitablar hədiyyə edildi.

Tədbirdə uşaq yazarları Zahid Xəlil, Reyhan Yusifqızı, Solmaz Amanova, Sevinc Nuruqızı, uşaq ədəbiyyatı tədqiqatçısı Füzuli Əsgərli, Mədəniyyət Nazirliyi Kitab dövriyyəsi və nəşriyyatlarla iş şöbəsinin əməkdaşı Ləman Mahmudova, Ombudsman Aparatının nümayəndəsi Azadə Novruzova iştirak edirdilər.

Kitabxananın direktoru, Əməkdar mədəniyyət işçisi Şəhla Qəmbərova çıxış edərək günün əhəmiyyətindən danışdı. Bildirdi ki, 1805-ci il aprelin 2-də uşaq ədəbiyyatının inkişafında əvəzsiz rolu olan danimarkalı yazıçı Hans Xristian Andersen dünyaya göz açıb. Andersenin nağılları iki əsrə yaxındır müxtəlif dillərə tərcümə olunur, sevilərək oxunur. Bu nağıllar əsasında musiqi əsərləri yazılıb, tamaşalar hazırlanıb, filmlər çəkilib.

1967-ci ildən yazıçının doğum günü Beynəlxalq Uşaq Ədəbiyyatı Şurasının təşəbbüsü ilə dünyada Beynəlxalq uşaq kitabı günü kimi qeyd olunur. Məqsəd uşaqların intellektual inkişafında kitabın rolunu artırmaq, kitaba sevgi aşılamaq və diqqəti uşaq kitabının nəşrinə yönəltməkdir.

Çıxışdan sonra tədbir iştirakçıları Gənc Tamaşaçılar Teatrının səhnəsində H.X.Andersenin "Qar kraliçası" nağılının tamaşasına baxdılar. 2017-ci ildə hazırlanan tamaşanın rejissoru Elşad Rəhimzadə, rəssamı Elşən Sərxanoğlu, musiqi tərtibatçısı İradə Muradova, rejissor assistenti Sona Mustafayevadır. Səhnə əsərinin plastik həlli Ceyhun Dadaşova məxsusdur.

**Savalan FƏRƏCOV**

## Puşkinin 220 illiyinə həsr olunmuş müsabiqə davam edir

Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin filialı olan Niyazinin mənzil-muzeyində Rusiyanın ölkəmizdəki səfirliyi, Bakıdakı Rusiya İnformasiya və Mədəniyyət Mərkəzinin və Azərbaycanda Rus İcmasının birgə təşkilatçılığı ilə dahi rus şairi A.S.Puşkinin 220 illiyinə həsr olunmuş konsert və müsabiqənin növbəti mərhələsi keçirilib.

Rusiya İnformasiya və Mədəniyyət Mərkəzinin əməkdaşı, Azərbaycanda Rusdilli Təhsil Müəssisələri Assosiasiyasının sədri Lyubov Yakunina, Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin şöbə müdiri Xanım Abdinova giriş sözü söyləyiblər.

Bakı Dövlət Universitetinin (BDU) tələbələrinin, Bakı Slavyan Universitetinin "Sfera" teatrı üzvlərinin və Bakı məktəblilərinin ifalarında A.S.Puşkin poeziyasından nümunələr və musiqi proqramı təqdim olunub.



Müsabiqə iştirakçılarının çıxışları münsiflər heyəti – Azərbaycan Yaradıcılıq Fondunun sədr müavini, Əməkdar mədəniyyət işçisi Rafiq Kaşanlı, "Rus dünyası" Fondunun BDU nəzdindəki mərkəzinin rəhbəri Arzu Məmmədova, "Günay" Uşaq teatrının rəhbəri Larisa Tarusova tərəfindən qiymətləndirilib.

## "Dünyanı tanıdır kitablar bizə"

Gəncə şəhər MKS-nin Uşaq şöbəsində Beynəlxalq uşaq kitabı gününə həsr olunmuş "Dünyanı tanıdır kitablar bizə" başlığı altında kitab sərgisi təşkil olunub.

Sərgidə "Nağıllar aləminə səyahət", "Dünya ədəbiyyatından incilər", "Sirli, sehrli nağıllar","Sizin sevimli yazıçılarınız" başlığı altında 100-ə yaxın uşaq kitabı nümayiş olunub.

Tədbirdə kitabxananın oxucuları, 42 və 44 saylı məktəbin şagirdləri və valideynlər iştirak ediblər.

# Qan yaddaşımızın unudulmayacaq səhifəsi

## 1918-ci il soyqırımının ildönümü ilə bağlı Quba Soyqırımı Memorial Kompleksində konfrans

*əvvəli səh. 1-də*

Tədbirin açılışında şagirdlər dahi bəstəkar Üzeyir Hacıbəylinin "Arazbarı" muğamını ifa etdilər.

Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Zakir Sultanov açılış nitqində bildirdi ki, konfransın məqsədi 1918-ci ilin mart-aprel aylarında Bakı Sovetinin mandatı altında fəaliyyət göstərən daşnak-bolşevik silahlı dəstələrinin Azərbaycan xalqına qarşı törətdiyi soyqırımının ağır nəticələrinin yenidən diqqət mərkəzinə çəkilməsi və bu barədə həqiqətlərin dünyaya çatdırılmasıdır. "Yüz bir il əvvəl erməni millətçiləri Bakıda, habelə Bakı quberniyasına daxil olan digər şəhər və qəzalarda on minlərlə dinc sakini məhz etnik və dini mənsubiyyətinə görə qətlə yetiriblər. Azərbaycanın Qarabağ, Zəngəzur, Naxçıvan, Şirvan, İrəvan və digər bölgələrində kütləvi qətllər, talanlar və etnik təmizləmələr həyata keçirən düşmənin bu vandalizm əməlləri nəticəsində yüzlərlə yaşayış məntəqəsi talan edilib, mədəniyyət abidələri, məscidlər dağıdılıb", - deyə Z.Sultanov qeyd etdi.

Mədəniyyət naziri Əbülfəs Qarayev konfransda çıxış edərək hər bir xalqın tarixində ağrılı, çətin məqamların olduğunu bildirdi. "Geri dönüb həmin hadisələrə diqqətlə baxmaq, tarixin dərslərindən ibrət götürmək vacibdir. Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan, XXI əsrin memarlıq üslubunda inşa olunmuş Quba Soyqırımı Memorial Kompleksində bunun üçün gözəl imkan var.

Ulu öndər Heydər Əliyev deyirdi ki, vaxt keçdikcə bu faciə bizim üçün daha ağrılı olur, onu daha dərindən dərk edirik və çətinliklə qəbul edirik. Bu sözlər faciəli tarixin yaddaşlarda həmişə yaşayacağını bildirir. Biz soyqırımı qurbanları qarşısında baş əyirik, onları yad edərək gənc nəslimizə məlumat veririk, düzgün yol göstəririk. Övladlarımız bu tarixi yaddan çıxarmamalıdır. Çünki erməni siyasətçiləri bu əməlləri həmişə davam etdirəcək. Buna görə də Azərbaycan xalqı ayıq olmalıdır. Bu çirkin siyasət davam edir. Biz beynəlxalq ictimaiyyəti daim məlumatlandırmalıyıq. Azərbaycan xalqının, burada əsrlərlə yaşayan digər xalqların yaratdıqları sərvəti, adət-ənənələri qorumalıyıq və gənc nəslə ötürməliyik", - deyə nazir Ə.Qarayev vurğuladı.

Nazir qeyd etdi ki, Azərbaycan gündən-günə inkişaf edir, hər sahədə uğurlar qazanılır. Amma davamlı inkişafla yanaşı, tariximiz daha dərindən öyrənilməli, unudulmamalıdır: "Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan siyasət nəticəsində iqtisadiyyatımız, ordumuz güclənir, beynəlxalq aləmdə Azərbaycana hörmətlə yanaşılır. Bununla bərabər, keçmişdə yaşadığımız faciəli tarixi hadisələrə baxaraq, daha güclü olmalıyıq. Azərbaycanın bir qarış torpağının, mədəni sərvətinin kiçik bir hissəsinin belə düşmən əlinə düşməsinə imkan verməməliyik. Bu gün mədəni sərvətlərimizə qarşı da dayanmadan təcavüz edilir. Ayıq olmalıyıq ki, torpağımızı, mədəni sərvətlərimizi müdafiə edə bilək. Mən bu yolda çalışan tarixçilərimizə, mədəniyyət xadimlərimizə, siyasətçilərimizə, ictimai qurumların nümayəndələrinə təşəkkür edirəm. Biz fəal olmalı, xalqımızın başına gətirilən faciələri daha geniş şəkildə dünya ictimaiyyətinə çatdırmalıyıq. Əminik ki, Azərbaycanın gəncliyi öz gələcək həyatını ərazi bütövlüyünü bərpa etmiş bir ölkənin vətəndaşları olaraq yaşayacaqlar. Azərbaycan torpaqları işğaldan azad olunacaq, əsl həqiqətlər dünya miqyasında tanınacaq və bu faciənin də dünya miqyasında siyasi və hüquqi qiyməti veriləcək".





Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev bildirdi ki, 2007-ci ildə aparılan tikinti işləri zamanı kütləvi məzarlığın aşkar olunması ermənilərin xalqımıza qarşı həyata keçirdiyi mart soyqırımının dəhşətlərini bir daha ortaya çıxarıb. Əldə olunan maddi sübutlar və sənədlər 1918-ci ilin mart-aprel aylarında və sonrakı dövrlərdə erməni millətçilərinin törətdikləri qanlı aksiyaların coğrafiyasının daha geniş və faciə qurbanlarının sayının qat-qat çox olduğu sübuta yetirir.

Diqqətə çatdırıldı ki, erməni millətçilərinin cinayətkar əməllərinin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycan xalqının milli yaddaşının qorunması və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədilə Prezident İlham Əliyevin 2009-cu il oktyabrın 30-da imzaladığı sərəncama əsasən, Heydər Əliyev Fondunun dəstəyi ilə Quba Soyqırımı Memorial Kompleksi inşa edilib. 2013-cü il sentyabrın 18-də dövlətimizin başçısı İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə kompleksin açılışı olub. Soyqırımı kompleksində yalnız Quba qəzasında deyil, Bakı quberniyasının Cavad, Göyçay, Şamaxı və Bakı qəzalarında törədilmiş soyqırımına dair məlumatların əks olunduğu tarixi sənədlər saxlanılır.






Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini Fidumə Hüseynova konfransın əhəmiyyətini vurğulayaraq dedi ki, Azərbaycan torpaqlarında sonradan məskunlaşdırılmış nankor ermənilər tarix boyu xalqımıza qarşı bir neçə dəfə dəhşətli soyqırımları törədib, öz məkrli məqsədlərinə çatmaq üçün hər cür vəhşiliyə, vandalizmə əl atıblar: "Hələ ötən əsrin əvvəllərində təcavüzlə mübarizə aparan soydaşlarımız "Difai" təşkilatını yaratmışdı. Amma sovet ideologiyası həmin təşkilatın üzvlərini panislamist adlandıraraq, xalq üçün fədakar zəhmətinə kölgə salmışdı. Biz bu faktları dünya ictimaiyyətinin diqqətinə çatdırmalıyıq. Öz gücümüzü göstərməliyik".

AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli çıxışı zamanı vurğuladı ki, Quba Soyqırımı Memorial Kompleksində nümayiş etdirilən sənədlər erməni vandalizmini bəşəriyyətin diqqətinə çatdırmaq üçün əvəzsiz nümunələrdir. Çox təəssüf ki, sovet hakimiyyəti illərində bu hadisələr xalqımıza birtərəfli qaydada çatdırılıb və ermənilərə təbliğat aparmaq üçün şərait yaradılıb: "Həmin hadisələrdən bəhs edən sənədlərin hamısı məxfi adı ilə Azərbaycan alimlərindən gizlədilirdi. Yalnız müstəqillik dövründə, 1998-ci il martın 26-da ulu öndər Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərmanla həmin dəhşətli hadisələrə siyasi qiymət verilib və 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edilib. Bundan sonra bu tarixi araşdırmaq üçün geniş meydan açıldı. Azərbaycan xalqına qarşı törədilmiş mart soyqırımının 100 illiyi ilə əlaqədar ötən il Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən, ölkəmizdə və xaricdə müxtəlif tədbirlər keçirildi".

Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral çıxışında iki ölkənin qarşılaşdığı təhdidlərin, faciələrin hər zaman eyni olduğunu diqqətə çatdırdı: "Biz iki dövlət, bir millətik. 1918-ci ildə Birinci Dünya müharibəsinin sonlarında rus orduları Anadoluya irəliləməyə başladı, Ərzurumu, Ərzincanı ələ keçirdi. Bu zaman Bakıdakı İsmailiyyə binasında yerləşən xeyriyyə cəmiyyəti Anadoludakı qardaşlarına yardım etdi. Məncə, İsmailiyyə binasının 1918-ci il martın 31-də yandırılan ilk binalardan biri olması heç də təsadüfi deyil. Türkiyəni, Osmanlı imperiyasını keçmişdə soyqırımı törətməkdə ittiham edənlər özlərinin əməllərini unutmaqdadırlar. Onlar 1918-ci ildə Azərbaycanda etdiklərinin eynisini Anadoluda da həyata keçirdilər. Ermənilər Anadoluda törətdikləri hadisələriOsmanlı dövlətinə qarşı özlərini müdafiə etmək üçün törətdiklərini iddia edirlər. O zaman onlardan soruşmaq lazımdır ki, bəs niyə Azərbaycanda bu əməlləri törətdiniz? Azərbaycanda o dönəm yaşananlar eyni şəkildə Anadoluda da yaşanıb. Bunun səbəbi də "Böyük Ermənistan" xəyalıdır. Ermənilər bu xəyaldan vaz keçməyiblər. 27 il əvvəl bunu öz gözlərimizlə gördük. Qarabağda, Xocalıda, Azərbaycanın işğal altındakı 7 rayonunda bunun şahidi olduq. Biz bu gün ayıq olmalıyıq. Xüsusən, gənclərimiz keçmişimizi öyrənib, gələcəyimizə sahib çıxmalıdırlar".

AMEA-nın Tarix İnstitutunun direktoru, millət vəkili, akademik Yaqub Mahmudov qeyd etdi ki, tarixin acı səhifələrini yaşamış Azərbaycan bu gün dünyanın qabaqcıl ölkələrindən biridir. "Prezidentimiz müasir inkişafın Azərbaycan modelinin müəllifidir. Fikrimcə, iqtisadi, sosial və digər sahələrdə qazanılan uğurlarla yanaşı, bu modelin ən böyük uğuru tariximizə sahib çıxmağımız, azərbaycançılıq təfəkkürünün qalib gəlməsidir. Quba Soyqırımı Memorial Kompleksinin yaradılması tariximizə sahib çıxmaq baxımından olduqca vacib addım oldu. Dünya ermənilərin yalanını çox asan eşidir və ona inanır. Bizim həqiqətləri isə qəbul etməyə meyilli deyil. Ona görə də biz daha çox işləməliyik. Təbliğat sistemimizi daha da mükəmməlləşdirməliyik. Bütün bunlarla bağlı çox qiymətli sənədlər var. Təəssüf doğuran hal isə dünyanın bunu görmək istəməməsidir. BMT-nin Ermənistanın təcavüzkar ölkə olması barədə 4 qətnaməsi var. Məgər dünya bunu görmür?", - deyə Y.Mahmudov bildirdi.

Konfransda daha sonra tarix elmləri doktoru, professor Solmaz Rüstəmova-Tohidi, Milli Məclisin deputatları Vahid Əhmədov, Qənirə Paşayeva və başqaları çıxış etdilər. Çıxışlarda bildirildi ki, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1918-ci ildə ermənilərin törətdikləri bu soyqırımı cinayətinin araşdırılması məqsədilə Fövqəladə İstintaq Komissiyası yaratmışdı. Lakin 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ilə bu proses dayandırıldı, baş verənlərin tam araşdırılmasının və hadisələrə müvafiq siyasi-hüquqi qiymətin verilməsinin qarşısı alındı. Bu gün həmin tarixi sənədlər xarici dillərə tərcümə olunaraq dünyaya çatdırılır.

Konfransın sonunda iştirakçılar Quba Soyqırımı Memorial Kompleksinin xatirə kitabına ürək sözlərini yazdılar.

**F.HÜSEYNOV**

# Ölkəmiz ilk dəfə Bolonya Beynəlxalq uşaq kitabı sərgisində təmsil olunur

*əvvəli səh. 1-də*

55 illik tarixə və nüfuza malik Bolonya sərgisində 80 ölkədən uşaq ədəbiyyatı sahəsi üzrə naşirlər, kitab evləri, kitab yayıcıları, yazarlar və müvafiq qurumların təmsilçiləri – 1400-ə yaxın iştirakçı var.

Ölkəmizdən "Şərq-Qərb", "Qələm", "Altun kitab" nəşriyyatları, F.Köçərli adına Respublika Uşaq Kitabxanasının əməkdaşlarının da iştirak etdiyi sərgi zamanı xüsusi dizaynda hazırlanmış Azərbaycan stendində kitab sənətimiz nümayiş olunur, xüsusilə Azərbaycan uşaq ədəbiyyatı nümunələri tanıdılır, nəşriyyat və poliqrafiya sahəsində xarici tərəfdaşlarla əlaqələrin qurulması üçün görüşlər keçirilir.

Milli stenddə həmçinin Mədəniyyət Nazirliyinin "Azərbaycan kitabının dünyaya tanıdılması" layihəsinin təqdimatı keçirilir və sərgi ziyarətçilərinə layihə haqqında geniş məlumat verilir. Layihə Azərbaycan ədəbiyyatı nümunələrinin müxtəlif dillərə çevrilməsi, çap olunması və xarici oxuculara təqdim olunmasını özündə ehtiva edir.




Sərgidə iştirak edən müxtəlif ölkələrin nəşriyyatlarını təmsil edən nümayəndələrinə iki ildən bir keçirilən ənənəvi Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkası haqqında da məlumat verilir və onlar sərgidə iştiraka dəvət edilir. Qeyd edək ki, VI Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkası 2019-cu il 27-29 sentyabr tarixində keçiriləcək.

Bolonya sərgisinin ikinci günü Beynəlxalq Uşaq Ədəbiyyatı Şurasına (İBBY) 2020-ci il üçün təqdim olunan uşaq yazarlarının əsərlərinin qiymətləndirilməsi ilə bağlı konfransda münsiflər heyətinin adları açıqlanıb və müsabiqəyə əsərləri verilən namizədlər təsdiq edilib.

2012-ci ildən İBBY-nin üzvü olan F.Köçərli adına Respublika Uşaq Kitabxanası 2020-ci il üçün beynəlxalq müsabiqəyə Azərbaycan uşaq yazıçısı Qəşəm İsabəylinin əsərini təqdim edib.

İBBY tərəfindən dünyada ən yaxşı uşaq yazarları, rəssam və tərcüməçilərinə verilən H.X.Andersen qızıl medalı uşaq ədəbiyyatı sahəsində "Nobel mükafatı" kimi qiymətləndirilir.

# Milli Kitabxanada sərgilər

Milli Kitabxanada "31 mart – azərbaycanlıların Soyqırımı Günüdür" mövzusunda geniş kitab sərgisi açılıb.

Sərgidə ermənilərin Azərbaycan xalqına qarşı törətdikləri cinayətləri əks etdirən 300-dən artıq Azərbaycan və digər dillərdə nəşr edilmiş kitablar, dövri mətbuat materialları, fotoşəkillər nümayiş olunub.

Milli Kitabxanaya gələn Azərbaycan Dillər Universitetinin tələbələri və müəllimləri – Alman Akademik Mübadilə Xidmətinin nümayəndəsi Mara-Liza Sezer, Avstriya Akademik Mübadilə Xidmətinin nümayəndəsi Stefani Matser, Torsten Dalmatiner də sərgi ilə yaxından tanış olublar.

* * *

Milli Kitabxanada açılan daha bir sərgi isə 2016-cı il Aprel döyüşlərinin ildönümünə həsr olunub.

Aprel döyüşlərində qazanılan qələbə xalqımızın, o cümlədən gənclərin hərbi-vətənpərvərlik ruhunu daha da yüksəltdi.

"Aprel döyüşləri və ya dördgünlük müharibə" adlı kitab sərgisində hərbi-vətənpərvərlik mövzusunda, Milli Qəhrəmanlar haqqında 200-dən çox ədəbiyyat nümayiş olunur.

# "Qanlı dərə" xalqların qanlarının bir-birinə qarışdığı məkandır

Qusar rayonunun ictimaiyyət nümayəndələri 1918-ci ildə "Qanlı dərə"də qələbə qazanmış Qusar və Quba qəhrəmanlarının şərəfinə ucaldılmış abidəni ziyarət ediblər.

Sonra Qusar Dövlət Rəsm Qalereyasında məktəblilərin 31 mart – Azərbaycanlıların Soyqırımı Gününə həsr etdiyi rəsm işlərindən ibarət sərgiyə baxış keçirilib.

Rayon İcra Hakimiyyətinin başçısı Şair Alxasov çıxış edərək bildirib ki, erməni generalı Hamazaspın rəhbərlik etdiyi hərbi dəstə 1918-ci ilin yanvar-may aylarında Quba qəzasında 16 mindən çox insanı məhv etmişdi. Soyqırımına məruz qalan sakinlər arasında ləzgi, tat, yəhudi və digər xalqların nümayəndələri də var idi. Düşmənlər silah-sursat sarıdan nə qədər güclü olsalar da, yerli əhali, əsrlərlə bir yerdə dostluq və qardaşlıq



şəraitində yaşamış azərbaycanlılar, ləzgilər, tatlar və digərləri birləşərək onların qarşısını almağa çalışır və bu yolda son nəfəslərinədək müqavimət göstərərək şəhid olurdular. "Qanlı dərə" bu bölgədə yaşayan xalqların qanlarının bir-birinə qarışdığı müqəddəs məkandır.

# UNESCO-da "Bakı Prosesi" beynəlxalq işçi qrupunun iclası keçirilib

Azərbaycan Respublikasının mədəniyyət naziri Əbülfəs Qarayevin Parisə səfəri zamanı UNESCO-da keçirdiyi görüşlər, təşkilatın Dünya İrs Komitəsinin Bakıda keçiriləcək sessiyasına hazırlıqla bağlı iclasda iştirakı barədə ötən sayımızda məlumat vermişdik.

Səfər zamanı UNESCO-nun baş qərargahında mədəniyyət naziri Əbülfəs Qarayevin sədrliyi ilə "Bakı Prosesi" beynəlxalq işçi qrupunun iclası keçirilib.

UNESCO Katibliyi, BMT-nin Sivilizasiyalar Alyansı, Avropa Şurası, İSESCO-nun rəsmiləri və işçi qrupun digər üzvlərinin iştirak etdiyi iclasda 2-3 may tarixində Bakıda keçiriləcək V Dünya Mədəniyyətlərarası Dialoq Forumunun proqramı və konsepsiya sənədləri müzakirə olunub.

Əbülfəs Qarayev qeyd edib ki, "Bakı Prosesi" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2008-ci ildən həyata keçirilir və bu proses çərçivəsində son 10 ildə 4 dəfə Dünya Mədəniyyətlərarası Dialoq Forumu, 6 dəfə Bakı Beynəlxalq Humanitar Forumu, nazirlər konfransları və digər beynəlxalq tədbirlər təşkil edilib. Bu təşəbbüs BMT-nin baş katibi tərəfindən təşkilatın əsas platforması kimi elan edilib, "Bakı Prosesi" və Dünya Mədəniyyətlərarası Dialoq Forumu qlobal xarakter alıb.



UNESCO-nun Mədəniyyətlərarası dialoq və tərəfdaşlıq departamentinin rəhbəri Maqnus Maqnusson qurumun "Bakı Prosesi"nin həyata keçirilməsində fəal iştirak etdiyini, onun əsas tərəfdaşlarından biri olduğunu və budəfəki forum çərçivəsində UNESCO tərəfindən 5 tədbirin təşkil ediləcəyini bildirib.

BMT-nin Sivilizasiyalar Alyansı, İSESCO, Avropa Şurasının rəsmiləri və Forumun ekspertlər qrupunun üzvü, Böyük Britaniyanın Koventri Universitetinin professoru Mayk Hardi V Dünya Mədəniyyətlərarası Dialoq Forumunun proqramı ilə bağlı fikirlərini səsləndiriblər və qərara alınıb ki, proqram üzrə müzakirə mövzuları, plenar sessiyalar barədə son təkliflər 5 aprel tarixinədək təqdim edilsin. Qeyd olunub ki, budəfəki Forum diskriminasiya, qeyri-bərabərlik və münaqişələrin qarşısının alınmasında dialoqun gücləndirilməsi mövzularını əhatə edəcək və bu çərçivədə mədəni müxtəlifliyin çoxtərəfli idarə olunması, gənclərin liderliyi və onların bu proseslərdə rolu, eyni zamanda miqrasiya və insan təhlükəsizliyi məsələləri xüsusi əhəmiyyət kəsb edəcək. Forum çərçivəsində, həmçinin Beynəlxalq Təşkilatların Rəhbərlərinin II Toplantısı və Nazirlər Konfransı da keçiriləcək.

Sonda nazir Əbülfəs Qarayev 2017-ci ildə keçirilən IV Dünya Mədəniyyətlərarası Dialoq Forumunun yekunlarını xatırladaraq növbəti Forumun prosesin davamı olaraq xüsusi yeniliklərlə yadda qalacağını və tədbirin yekununda Fəaliyyət Planının qəbul ediləcəyini bildirib.

### V Dünya Mədəniyyətlərarası Dialoq Forumu ilə bağlı informasiya sessiyası

UNESCO-nun baş qərargahında V Dünya Mədəniyyətlərarası Dialoq Forumu ilə bağlı informasiya sessiyası da keçirilib. Sessiyanı açıq elan edən təşkilatın Mədəniyyətlərarası dialoq və tərəfdaşlıq departamentinin rəhbəri Maqnus Maqnusson "Bakı Prosesi"nin əhəmiyyəti və V Dünya Mədəniyyətlərarası Dialoq Forumuna hazırlıqla bağlı üzv ölkələrin nümayəndələrinə məlumat verib.

Sonra Azərbaycan Respublikasının UNESCO yanında daimi nümayəndəsi Anar Kərimov, Mədəniyyət Nazirliyinin Aparat rəhbərinin müavini – Beynəlxalq əməkdaşlıq və innovativ inkişaf şöbəsinin müdiri, Forumun Təşkilat Komitəsinin katibi Vasif Eyvazzadə, BMT-nin Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsinin kabinet rəhbəri Nihal Saad, İSESCO-nun rəsmisi Yahya Pallaviçini və Avropa Şurasının rəsmisi Migel Silva çıxış edərək müasir dövrdə mədəniyyət və dinlərarası münasibətlərin vəziyyəti, "Bakı Prosesi"nin qlobal səviyyədə əhəmiyyəti, 2019-cu ilin 2-3 may tarixində Bakıda keçiriləcək V Dünya Mədəniyyətlərarası Dialoq Forumunun proqramında nəzərdə tutulan məsələlərlə bağlı danışıblar.

İnformasiya sessiyasında "Bakı Prosesi" və V Dünya Mədəniyyətlərarası Dialoq Forumuna həsr olunan film nümayiş etdirilib.

# Mədəniyyət Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı müşavirə

Gəncədə Prezident İlham Əliyevin "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2019-cu il 15 yanvar tarixli fərmanından irəli gələn vəzifələrin izah olunması, beynəlxalq təcrübə əsasında müəssisələrin idarə olunmasında müasir üsulların formaları və innovativ idarəçilik metodlarının bölgələrdə tətbiqi məsələlərinin müzakirəsinə həsr olunmuş müşavirə keçirilib.

Məhsəti Gəncəvi Mərkəzində keçirilən tədbirdə mədəniyyət nazirinin müavini Rafiq Bayramov, nazirliyin rəsmiləri, regional mədəniyyət idarələrinin rəisləri, kitabxanaların, incəsənət və musiqi məktəblərinin direktorları, həmçinin ayrı-ayrı mədəniyyət müəssisələrinin, bədii və özfəaliyyət kollektivlərinin rəhbərləri iştirak ediblər.

Tədbiri açan mədəniyyət nazirinin müavini Rafiq Bayramov fərmandan irəli gələn vəzifələr, eyni zamanda qarşıya qoyulmuş tapşırıqların icrası üçün görüləcək işlərə bağlı müşavirə iştirakçılarına məlumat verib.

Bildirilib ki, müşavirənin keçirilməsində məqsəd regionlarda mədəniyyət sahəsində çalışan mütəxəssislərin inkişaf pers-





pektivləri ilə bağlı fikirlərini öyrənmək, mədəniyyət nümayəndələri tərəfindən səsləndirilən təklifləri qeydə almaq və sonda ümumi təkliflər paketi hazırlamaqdır.

Nazirliyin Aparat rəhbərinin müavini – Hüquq və daxili nəzarət şöbəsinin müdiri Namiq Qulamov dövlətin mədəniyyət siyasətinin formalaşdırılması üçün fərmanın icrasından irəli gələn vəzifələrin zəruriliyindən danışıb. Qeyd olunub ki, qarşıdakı illərdə Mədəniyyət Nazirliyinin strukturunun təkmilləşdirilməsi, bir çox mədəniyyət müəssisələrinin optimallaşdırılması, həmin müəssisələrdə fəaliyyətin daha səmərəli və müasir metodlarla qurulması üçün bir çox ölkələrin, xüsusən MDB, Baltikyanı və Avropa ölkələrinin bu sahədə təcrübəsi öyrənilib. İlk olaraq normativ-hüquqi bazanın formalaşdırılması, mədəniyyət müəssisələrinin strukturunun təşkili, idarəetmə və nəzarət mexanizminin qurulması, büdcə və qeyri-büdcə müəssisələrinin maliyyələşdirilməsi imkanları araşdırılıb. Bölgələrin mədəni müxtəlifliyinin nümayişi və dünyada tanıdılması üçün festivalların, sərgi və konsertlərin əhəmiyyətini diqqətə çatdıran Namiq Qulamov bu sahədə inkişaf etmiş ölkələrin təcrübəsindən danışıb.

Aparat rəhbərinin müavini folklor və özfəaliyyət kollektivlərinin yaradılmasında, festivalların, sərgilərin, təqdimatların konsertlərin təşkilində, eləcə də müəssisələr tərəfindən ödənişli mədəni xidmətlərin göstərilməsində, sifarişlərin qəbulunda dünya təcrübəsindən söz açıb, menecment işinin və marketinq siyasətinin düzgün qurulmasının vacibliyini qeyd edib.

Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin direktoru Asif Usubəliyev "Sınanılmış təcrübə və qaçılmaz yeniliklər" mövzusunda təqdimatla çıxış edib. Bölgələrdə mədəniyyət sahəsində fəaliyyət göstərən bir çox kadrlar arasında yeni peşə təfəkkürünün formalaşdırılması, qazanılmış təcrübənin yeni istiqamətdə təqdimatı üçün görüləcək işlər qeyd olunub. Bildirilib ki, bu məqsədlə Mədəniyyət Nazirliyi tərəfindən 70-dən çox sahəni və mövzuları əhatə edən metodik vəsait hazırlanıb. Həmçinin mədəniyyət müəssisələrində işləyən kadrların peşə bilik və səriştələrinin artırılması üçün ixtisasartırma təlimlərinin keçirilməsi nəzərdə tutulub. Həmçinin gənc mədəniyyət işçiləri ilə iş – kreativ layihələrin hazırlanması, təqdimatı və reallaşdırılması, könüllülərlə iş, mədəniyyət müəssisələrinin yaradıcı sənaye potensialının təşviqi gələcəkdə görüləcək işlərdəndir.

Nazirliyin Regional siyasət şöbəsinin Təhsil müəssisələri ilə iş sektorunun müdiri Lalə Kərimova çıxışında peşəyönümlü incəsənət təhsili və böyüməkdə olan nəslin kütləvi surətdə incəsənətin müxtəlif sahələri üzrə yaradıcılığa cəlb edilməsinin cəmiyyət üçün xüsusi əhəmiyyət daşıdığını vurğulayıb. Qeyd edilib ki, Mədəniyyət Nazirliyi sistemində 211 bədii təhsil müəssisəsi, o cümlədən Ağcabədi şəhər Üzeyir Hacıbəyli adına Qarabağ Muğam Mərkəzi, Şamaxı Şəhər İncəsənət Təhsili Mərkəzi, Gədəbəy Aşıq Məktəbi, Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbi, 158 uşaq musiqi məktəbi, 47 uşaq incəsənət və 2 uşaq rəssamlıq məktəbi fəaliyyət göstərir. Həmin məktəblərdə 36 ixtisas üzrə 59100 şagird təhsil alır.

Sonra Şəki Regional Mədəniyyət İdarəsinin rəisi Mirvari Zeynalovanın və Kürdəmir Regional Mədəniyyət İdarəsinin rəisi Elman Məmmədovun məruzəsi dinlənilib.

Sonda mövzular ətrafında müzakirələr aparılıb, bir sıra təkliflər səsləndirilib.

## Beynəlxalq Türk Akademiyasından Nəsiminin 650 illiyi ilə bağlı kitab

Beynəlxalq Türk Akademiyası (TWESCO) Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin anadan olmasının 650 illik yubileyi ilə bağlı bir sıra tədbirlər keçirəcək.

Akademiya tərəfindən şairin şeirlərindən ibarət kitab nəşr edilib. Kitabın yaxın günlərdə təqdimatı keçiriləcək. Bundan başqa, "Azərbaycan ədəbiyyatı antologiyası" da çap olunub.

## Soyqırımının dəhşətləri rəsmlərdə

Şirvan Dövlət Rəsm Qalereyası "Soyqırımının dəhşətləri rəsmlərdə" adlı sərgi təşkil edib.

Yeni Azərbaycan Partiyasının Şirvan şəhərindəki qərargahının binasında təşkil olunmuş sərgidə qalereyanın dərnək üzvlərinin 30-dan çox rəsm və əl işi nümayiş olunub. 10, 16, 18, 2 və 4 nömrəli məktəblərin şagirdlərinin rəsmləri müxtəlif üslub və kompozisiyalarda azərbaycanlılara qarşı kütləvi şəkildə törədilmiş soyqırımı səhnələrini əks etdirib.

# Neyronlar haqqında elm və memarlıq

Martın 30-da Mədəniyyət Nazirliyi, Azərbaycan Dövlət Rəsm Qalereyası və "NP BAKU Center"in təşkilatçılığı ilə Muzey Mərkəzində "Neyroelm və memarlıq" adlı seminar keçirilib.

Azərbaycan Dövlət Rəsm Qalereyasının direktoru Qalib Qasımov seminarın əhəmiyyətindən danışıb və Azərbaycan memarlıq sənətinin qədim ənənələri olduğunu vurğulayıb.

"Memarlıq və beyin neyronları ilə fəaliyyətin əlaqəsi" və "Rənglər və həndəsi obyektlərin beyində əksi" mövzularına həsr olunan seminar "NP BAKU Center"in rəhbəri, Türk-Amerikan Neuropsixiatriya Birliyinin üzvü Nurana Kazımovanın rəhbərliyi ilə aparılıb.



Qeyd edilib ki, seminar neyroelm və memarlıq arasındakı əlaqələri kəşf etmək məqsədilə təşkil olunub. Dünya neyroelm araşdırmaları göstərir ki, çevrəmizdə bizi əhatə edən bütün yaradıcılığımız, duyğu və davranışlarımız modellərimizdə özünü əks etdirir. İnsan beyninin quruluşu və yaradıcılığı ilə bağlı anlayışlarımız hələ də formalaşma mərhələsindədir.

İnsan beyni bəşəriyyətdə bizə məlum olan ən mürəkkəb qurğudur. Beyində olan milyardlarla neyron, trilyonlarla sinaps vasitəsilə bir-biri ilə əlaqə qurur. Beyin və orqanizmin yerdə qalan hissəsi ilə qurulan bağlantı sinir sistemi vasitəsilə təmin olunur.

Seminar mövzu ətrafında müzakirələrlə davam edib.

# Qan yaddaşımızın musiqi təcəssümü

Bəstəkarlar İttifaqında 31 mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar anım tədbiri keçirildi.

İttifaqın katibi, Əməkdar incəsənət xadimi, professor Cəlal Abbasov tədbiri açaraq müxtəlif dövrlərdə ermənilər tərəfindən xalqımıza qarşı törədilmiş soyqırımı cinayətləri barədə danışdı. Bildirdi ki, 1918-ci ilin mart soyqırımı Azərbaycan xalqının tarixində baş vermiş ən faciəli hadisələrdəndir. Ulu öndər Heydər Əliyevin müvafiq fərmanı ilə 31 mart tarixi 1998-ci ildən dövlət səviyyəsində Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd edilir. Erməni şovinistləri 1905-1907, 1948-1953-cü illərdə, eləcə də 1988-ci ildən başlayaraq azərbaycanlılara qarşı genişmiqyaslı aksiyalar, deportasiya və etnik təmizləmə həyata keçiriblər.

Qeyd olundu ki, 1918-ci ildə azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəran və digər bölgələrdə xüsusi qəddarlıqla icra olunub. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilib, kəndlər yandırılıb, tarixi və dini abidələr dağıdılıb.



Sənətşünaslıq elmləri doktoru Cəmilə Həsənova çıxışında qeyd etdi ki, keçmiş sovet dövründə xalqımızın qarşılaşdığı qəddarlıqlar və faciələr barədə məlumatlar uzun müddət cəmiyyətdən gizli saxlanılıb və tariximiz saxtalaşdırılıb: "Təəssüf ki, uzun illər biz bu qanlı faciələrdən xəbərsiz yaşamışıq. Lakin gec də olsa, şair və yazıçılarımız bu faciələr barədə kitablar yazdılar. Bir çox musiqi əsərləri bəstələndi. Görkəmli bəstəkarlarımızdan Vasif Adıgözəlovun "Natəvan", Firəngiz Əlizadənin "İntizar" operaları, Oqtay Kazımının "Şəhidlər" simfoniyası, Ramiz Mustafayevin "Salatın" oratoriyası, Azər Dadaşovun "Bu Vətən ölə bilməz" kantatası və digər əsərlər ərsəyə gəlib".

Çıxışlardan sonra Azər Dadaşovun "Nalə" kompozisiyası təqdim olundu.

Savalan FƏRƏCOV

# Zəngin mədəni irsimizlə “Bölgələrdən bölgələrə”

*əvvəli səh. 1-də*

Lahıc ustalarının hazırladıqları misgərlik nümunələri, məişət qabları, Basqal kəlağayıları, Sumqayıt sənətkarlarının zərif naxışlı tikmələri, muncuqlardan hazırlanmış bəzək əşyaları, Xaçmaz bölgəsindən olan ustaların çay daşları üzərində həkk etdikləri portretlər, Şəki ustalarının hazırladıqları şəbəkəbəndlər, kəlağayı, təkəlduz sənəti nümunələri, həmin bölgəyə aid şirniyyatlar, biləsuvarlı sənətkarın qrafik əsərləri, Milli Qəhrəman Mübariz İbrahimovun portreti, Masallı regional idarəsi tərəfindən təqdim olunan həsirdən hörmə, toxuma əl işləri, ağacoyma nümunələri maraqla qarşılanıb. Bundan başqa, digər regional idarələrin guşələrindəki nümunələr, yağlı boya ilə çəkilmiş natürmortlar, portretlər, peyzajlar, tariximizə aid fəlsəfi məzmunlu rəsmlər, eləcə də həm milli, həm də bir çox xalqların qədim və müasir incəsənət növlərinin sintezi ilə hazırlanmış əsərlər, müxtəlif əl işləri festival iştirakçılarında zəngin təəssürat yaradıb.

Sonra Mədəniyyət Nazirliyinin regional mədəniyyət idarələrinin bədii özfəaliyyət kollektivləri, folklor və rəqs qrupları konsert proqramı ilə çıxış ediblər. Müğənni və xanəndələr tərəfindən bəstəkar və xalq mahnıları ifa olunub, ayrı-ayrı bölgələrin özfəaliyyət kollektivləri milli, etnik rəqs nümunələri ilə çıxış ediblər.

Festival iştirakçılarının çıxışları tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb. Sakinlər bölgələrimizdə ikinci dəfə belə bir festivalın keçirilməsinin əhəmiyyətini məmnunluqla qeyd ediblər.

**Festivalın növbəti ünvanı Ağstafa olub**

“Bölgələrdən bölgələrə” yaradıcılıq festivalının növbəti ünvanı Ağstafa şəhəri olub.

Şəhərdəki Heydər Əliyev parkında keçirilən tədbirdə Mədəniyyət Nazirliyinin təmsilçiləri, Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev, mədəniyyət işçiləri, ictimaiyyət nümayəndələri, həmçinin regional mədəniyyət idarələrinin nümayəndə heyətləri iştirak ediblər.











Parkda Mədəniyyət Nazirliyinin 15 regional idarəsinin festival çadırları qurulub. Tədbir iştirakçıları hər bir regional idarə üzrə şəhər və rayonların mədəni irsini əks etdirən xalq sənətkarlıq nümunələri, rəsm əsərləri, müxtəlif əl işləri ilə maraqla tanış olublar.

Sonra Mədəniyyət Nazirliyinin regional idarələrinin bədii özfəaliyyət kollektivləri, folklor və rəqs qruplarının iştirakı ilə konsert proqramı təqdim olunub.

Sərgi-guşələrlə tanışlıq, həmçinin konsert proqramı regionlardan gəlmiş qonaqlarda, eləcə də yerli ictimaiyyət nümayəndələrində zəngin təəssürat yaradıb.

Ağstafa Regional Mədəniyyət İdarəsinin rəisi Vüqar Qədirov AZƏRTAC-ın bölgə müxbirinə müsahibəsində belə tədbirlərin bölgələrin mədəni irsinin təbliği baxımından böyük əhəmiyyətə malik olduğunu qeyd edib. Bildirib ki, Azərbaycanın digər regionları kimi, qərb bölgəsinin də qədim tarixi, zəngin mədəniyyət abidələri, eləcə də füsunkar təbiəti yerli və xarici qonaqları cəlb edir. Yaradıcılıq festivalı ölkəmizə gələn həm xarici qonaqlara, həm də yerli sakinlərə bölgələrin rəngarəng mədəni həyatı ilə əyani şəkildə tanış olmağa imkan yaradacaq.

Gəncə Regional Mədəniyyət İdarəsinin təmsilçisi Məhbubə Həsənova da festivalın əhəmiyyətini vurğulayıb. Bildirib ki, ötən il olduğu kimi, bu il də belə bir festivalda bölgələrin mədəni zənginliyinin geniş şəkildə nümayiş olunması çox xoş və təqdirəlayiq hadisədir.

Rayon sakinləri də bölgələrdə bu cür yaradıcılıq festivallarının keçirilməsini yüksək qiymətləndirərək, tədbirin təşkilatçılarına minnətdarlıqlarını ifadə ediblər.

* * *

Qeyd edək ki, 2018-ci ilin yayında Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə keçirilən və Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunan “Bölgələrdən bölgələrə” ilk yaradıcılıq festivalı iki ay davam edərək geniş rezonans doğurmuşdu.

Builki festival da iki ay davam edəcək. Gəncə və Ağstafadan sonra festival tədbirlərinin aprel ayında Kürdəmir, Ağdaş, Saatlı, Neftçala, Bərdə, Ağcabədi, Abşeron, Xaçmaz rayonlarında, may ayında Lerik, Masallı, Şəmkir, Balakən və Şamaxıda keçirilməsi planlaşdırılır.

## Müştərək televiziya layihəsi davam edir

Mədəniyyət Nazirliyi ilə Azərbaycan Televiziyasının “Mədəniyyət” kanalının “Bölgələrdən bölgələrə” adlı müştərək televiziya layihəsi davam edir.




Layihənin növbəti konsert proqramı çəkilişi Şamaxı rayon Mədəniyyət Mərkəzində gerçəkləşib.

Konsert proqramı İsmayıllı Regional Mədəniyyət İdarəsinin əhatə etdiyi Şamaxı, İsmayıllı, Ağsu, Qobustan, Qəbələ rayonlarının mədəni irsinin təbliği, regionun mədəni potensialının nümayiş etdirilməsi məqsədilə təşkil edilib.

Xatırladaq ki, regionlarımızın mədəni irsinə, xalq yaradıcılığına və incəsənətinə həsr olunan “Bölgələrdən bölgələrə” adlı müştərək televiziya verilişinin ilk çəkilişi fevral ayında Ağstafa rayonunda aparılmışdı.

Şamaxıda keçirilən konsertdə regional idarənin tabeliyində olan rayonların istedadlı şagirdləri tərəfindən bəstəkar və xalq mahnıları ifa olunub, özfəaliyyət kollektivləri milli və etnik rəqs nümunələri ilə çıxış ediblər. Konsert tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

## “Zülmətdə nur”un təqdimatı

Sumqayıt Dövlət Dram Teatrında şair-dramaturq Nizami Muradoğlunun “Zülmətdə nur” kitabının təqdimat mərasimi keçirilib.



“Zülmətdə nur” mənzum dramı ötən mövsümdə Sumqayıt Dövlət Dram Teatrında tamaşaya qoyulub. Pyes Azərbaycan tarixinin ağrılı bir səhifəsini özündə əks etdirir. Mütəfəkkir şair, böyük dramaturq Hüseyn Cavidin və ailəsinin başına gətirilən faciə, zamanın amansız repressiya maşınının törətdiyi qətllər təsirli şəkildə təsvir olunub. Həmçinin Hüseyn Cavidlə eyni taleyi yaşamış istiqlal şairləri Əhməd Cavadın və Mikayıl Müşfiqin çəkdikləri əziyyətlər də pyesdə yer alıb.

Teatrın direktoru, Əməkdar artist Mübariz Həmidov çıxış edərək əsərin tarixi həqiqətləri özündə ehtiva etmək baxımından əhəmiyyətini vurğulayıb.

Tamaşanın quruluşçu rejissoru, Xalq artisti Firudin Məhərrəmov bildirib ki, korifey sənətkar, böyük dramaturq haqqında pyes yazmaq da, onu tamaşaya hazırlamaq da məsuliyyətli işdir və nə yaxşı ki, yaradıcı heyət bu işin öhdəsindən layiqincə gələ bilib.

Kitabın redaktoru Əhməd Qəşəmoğlu, yazıçı-ssenarist Hafiz İmamnəzərli, professor Allahverdi Məmmədli və başqaları çıxış edərək müəllifi təbrik edib, ürək sözlərini söyləyiblər.

## Naxçıvanda Dünya teatr günü

Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında 27 mart – Dünya teatr günü münasibətilə tədbir keçirilib.

Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova çıxış edərək əlamətdar günün tarixi barədə məlumat verib, muxtar respublikada teatrların maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində görülən işlərdən, teatrların yaradıcılıq axtarışlarından söz açıb.

Vurğulanıb ki, xalqımızın qədim və zəngin mədəniyyətini yaşatmaq, vətənpərvərlik duyğularını gücləndirmək, yüksək səviyyəli estetik-mənəvi təsirə malik olan əsərləri səhnəyə gətirmək teatrların mühüm vəzifəsi və məqsədidir.

Tədbir iştirakçıları daha sonra teatrın səhnəsində yazıçı-dramaturq, Əməkdar incəsənət xadimi Əli Əmirlinin “Əli və Nino” tamaşasına baxıblar.

## Ağdam teatrında “Cadu əməliyyatı”

Ağdam şəhəri Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunandan sonra bu şəhərin zəngin tarixə malik teatrı dəfələrlə müxtəlif ünvanlarda məskunlaşmış, hansı ünvanda, hansı şəraitdə olsa da, hər zaman tamaşaçılarına xidmət göstərmişdir. Bu müddət ərzində mən də bir neçə dəfə teatra dəvət olunmuş, onların tamaşalarına baxmışam...

Bu dəfə Ağdam Dövlət Dram Teatrında Xanirə Röyanın (İsgəndərova) “Cadu əməliyyatı” tamaşasının premyerasına dəvət olunmuşdum. Martın 12-də səhər tezdən rayonun Quzanlı qəsəbəsinə yola düşdüm.

Qədim Bərdəni keçib Ağdamın Quzanlı qəsəbəsinə doğru yol alırıq. Qəsəbəyə yaxınlaşanda bizi böyük bir təpənin üstündə düşmənə gözdağı olan, qəlbimizi riqqətə gətirən üçrəngli bayrağımız qarşılayır. Cəbhə xətti heç də uzaqda deyil, amma həyat öz axarındadır. Yolboyu ora-bura tələsən insanlar, balaca uşaqlar adi gündəlik həyatlarını yaşayır. Bu, insanı sevindirir...

Bir qədər də yol gedib, Quzanlı qəsəbəsindəki Ağdam Dövlət Dram Teatrının binasına çatıram. Teatrın direktoru Məmməd Hüseynov, baş rejissoru Novruz Cəfərov, bir neçə aktyor və rayonun ziyalıları məni mehribanlıqla qarşılayırlar. Əsərin müəllifi Xanirə Röya da buradadır. Onun bir neçə əsərini oxumuşam. Bu əsərlərin əksərində hadisələrin maraqlı süjet xətti, obrazların vəziyyətə uyğun xarakter dəyişkənliyi və konflikt, bir dram yazarı olaraq, mənə xoş gəlib...

* * *



“Cadu əməliyyatı” tamaşasının quruluşçu rejissoru teatrın orta yaş nəslinin nümayəndəsi, təcrübəli və istedadlı aktyor Kərim Həsənovdur o həm də baş rolun ifaçısıdır. Səhnə əsərinin quruluşçu rəssamı Müşfiq Qarayev, musiqi tərtibatı Elşən Cəfərov, rejissor assistenti Ceyhun Yusifovdur. Rolları Kərim Həsənov (Qulammirzə), Afaq Əliyeva (Bibixanım), Əməkdar artist Aidə Qasımova (Anaxanım), Afəridə Əhmədova (Nara), Fərhad Fərhadzadə (Əhmədağa), Cəfər Bayramov (Molla), Xəyalə Xudadatova (Gülxanım), Ülviyyə Qasımova (Fatma), Qalib Abdullazadə (Ocaqqulu) obrazlarını ifa edirlər.

Əsərin qısa məzmunu belədir. Qulammirzə hər gün içir və arvadı Bibixanımı döyür. Bibixanım döyülməkdən təngə gəlib, bacısı Anaxanıma şikayət edir. Anaxanım özü ərinə içkini tərgitdirdiyi kimi, mollanın yanına gedib dua yazdırmağı və Qulammirzəyə uzunqulaq kəlləsinin ətini yedirməyi məsləhət görür. Yazıq qadın əlacsızlıqdan bunu edir və əri içkini atıb, insan cildində olsa da, uzunqulağa çevrilir...

Əsər janr etibarilə yumoristik komediyadır. Tamaşaya janrın tələblərinə müvafiq rejissor yozumu və aktyor oyun tərzi verilib. Aktyorlar janrın tələbləri çərçivəsində obrazlarını təqdim edirlər. Azərbaycan tamaşaçısı komediyalara və bu səpkili mövzulara meyillidir.

Səhnənin pərdəsi açılan kimi, tamaşaçı sərxoş Qulammirzənin arvadı Bibixanımı döyməyini görür. Kərim Həsənov Qulammirzə obrazını çılğınlıqla, içkili insana məxsus qarmaqarışıq hərəkətlər və mimikalarla ifa edir. Onun təqdimində improvizəyə də müəyyən qədər yer verilir. Obraz tamaşaçıda həm gülüş, həm də məyusluq doğurur.

Kərim Həsənov maraqlı aktyor oyunu ilə həmişə mənim diqqətimi cəlb edib. O, illər ötdükcə daha da püxtələşərək maraqlı və baxımlı olmağı, obrazları ilə tamaşaçıları sevindirməyi bacarır. Baş rolun ifaçısı digər obrazların ifaçılarını da öz oyun tərzinə kökləyə bilib.

Afaq Əliyevanın ifasında Bibixanım hay-haray salan, bir anda kükrəyib, bir anda da sakitləşən, eyni zamanda ailəsinin sakit həyat tərzini hər şeydən üstün tutan obrazdır. Ümumiyyətlə, aktrisanın oyunu maraqla izlənilir.

Təcrübəli aktrisa, Əməkdar artist Aida Qasımova obrazının mahiyyətini duyaraq xarakterik cizgilərlə baxımlı ifaya nail ola bilir. Afəridə Əhmədovanın Nara obrazı da müasirlərimiz olan yüngültəbiətli gənclərin ümumiləşdirilmiş obrazı kimi diqqət çəkir. Fərhad Fərhadzadənin Əhmədağası mətnə uyğun dəqiq ştrixlərlə yadda qalır. Bundan əlavə, Cəfər Bayramovun Mollası yumoristikliklə yanaşı dəqiqlik və yerində işlənmiş satirik çalarlar, Xəyalə Xudadatovanın Gülxanım obrazının təsvirindəki xarici və daxili vəhdət, Ülviyyə Qasımovanın Fatma və Qalib Abdullazadənin Ocaqqulu obrazlarında da komik çalarlar tamaşaçıların marağına səbəb olur. Bütün bunlar, əlbəttə ki, əsərin mövzusu və dəqiq rejissor yozumu, həmçinin ideyaya uyğun aktyor ifalarından irəli gəlir.

Tamaşanın bədii və musiqi tərtibatı mövcud imkanlara uyğun həllini tapmışdır. Həm musiqi, həm tərtibat mətnin ideyasına, tamaşanın obrazlı təqdimatına uyğunlaşdırılmışdır. Söz yox ki, tamaşada bəzi xırda əyər-əskiklər də var və bu da təbiidir. Biz bilərəkdən onları sadalamadıq. Düşünürük ki, tamaşa oynandıqca, tədricən bəzi xırda çatışmazlıqlar da ortadan qalxar.

Məsləhətimiz odur ki, bəzi aktyorlar, xüsusən gənclər obrazın təqdimində, ifada tələskənliyə yol verməsinlər. Mətnin dəqiq təqdiminə, sözlərin məna çalarlarının çatdırılmasına çalışsınlar. Ancaq elə bilirəm ki, yaradıcı kollektiv quruluşçu rejissorun yardımı ilə tədricən bu işin öhdəsindən gəlib tamaşaçıları sevindirməyə qadirdir...

Quzanlıda yerləşib, düşmənə öz sənətlərilə meydan oxuyan Ağdam Dövlət Dram Teatrına yeni səhnə uğurları və tezliklə Ağdamda fəaliyyətlərini davam etdirməklərini arzu edirəm.

**Çingiz ƏLƏSGƏRLİ**
**teatrşünas, dramaturq**

№24 (1609)
3 aprel 2019
www.medeniyyet.az

# Cəlil Məmmədquluzadə və “Molla Nəsrəddin” ədəbi məktəbi

Böyük yazıçı, dramaturq, publisist Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamına müvafiq olaraq Bakı Xoreoqrafiya Akademiyası Təhsil Kompleksində (BXA) “Cəlil Məmmədquluzadə və “Molla Nəsrəddin” ədəbi məktəbi” mövzusunda elmi-nəzəri konfrans keçirilib.



Tədbiri giriş sözü ilə BXA-nın Azərbaycan dili və ədəbiyyatı kafedrasının müdiri, sənətşünaslıq üzrə elmlər doktoru, professor Vəfa Əliyev açaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin görkəmli ədəbiyyat klassikləri – İmadəddin Nəsiminin 650, Cəlil Məmmədquluzadənin 150, Cəfər Cabbarlının 120, Həmid Araslının 110 və İsmayıl Şıxlının 100 illik yubileyləri ilə bağlı sərəncamlar imzaladığını diqqətə çatdırıb. Sonra o, Cəlil Məmmədquluzadənin həyat və yaradıcılığı haqqında ətraflı məlumat verib.

İctimai fənlər kafedrasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, professor Maral Manafova “Cəlil Məmmədquluzadənin həyat və yaradıcılığı”, Sənətşünaslıq kafedrasının müdiri, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Rafiq Sadıqov “Cəlil Məmmədquluzadənin publisistikası”, filologiya üzrə fəlsəfə doktoru, dosent Aypara Məmmədova “Cəlil Məmmədquluzadə “Molla Nəsrəddin” ədəbi məktəbinin banisi kimi”, Magistratura və doktorantura şöbəsinin müdiri, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Fərhunə Atakişiyeva “Molla Nəsrəddin” ədəbi məktəbində dil məsələləri”, BXA-nın dissertantı Dinara Əliyeva “Cəlil Məmmədquluzadənin XX əsr yaradıcılığında XIX əsr rus tənqidi realizminin rolu” adlı məruzələrlə çıxış ediblər.

Akademiyanın tələbələri C.Məmmədquluzadənin felyetonlarından nümunələr səsləndiriblər. Sonda iştirakçılar BXA-nın kitabxanası tərəfindən təqdim olunan ədibin məqalə və kitablarından ibarət sərgiyə baxıblar.

# “Vətən harayı” mövzusunda dəyirmi masa

Məmməd Səid Ordubadinin xatirə muzeyində 31 mart – Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar “Vətən harayı” mövzusunda dəyirmi masa təşkil edilib.

Muzeyin direktoru Lalə Abaszadə tədbiri açaraq 1918-ci ilin mart-aprel aylarında erməni daşnak və bolşevik dəstələrinin Azərbaycan xalqına qarşı həyata keçirdiyi soyqırımı haqqında danışıb.

Muzeyin bələdçiləri Lamiyə Balıyeva və Nərmin Baxşıyeva, M.Rahim adına 7 saylı tam orta məktəbin tarix müəllimi Yeganə Bağırova mövzuya dair çıxış ediblər.

Muzeyin elmi işçisi İradə Vəliyeva M.S.Ordubadinin “Qanlı illər” əsərində Qafqazda 1905-1907-ci illərdə baş verən erməni-müsəlman davasının tarixi, xalqımıza qarşı soyqırımları, 1918-ci ilin mart qırğınlarından bəhs edib.

# “Qarabağın gözü yolda”

Martın 31-də Beynəlxalq Mətbuat Mərkəzində Birləşmiş Dünya Azərbaycanlıları Təşkilatının (BDAT) Azərbaycan nümayəndəliyinin təşkilatçılığı ilə “Qarabağın gözü yolda” adlı qısametrajlı filmin təqdimatı keçirilib.

BDAT-ın Azərbaycan nümayəndəliyinin sədri Könül Məmmədzadə təşkilat barədə məlumat verib. Bildirib ki, qurumun məqsədi Azərbaycan həqiqətlərini dünyaya doğru şəkildə çatdırmaqdır. Sonra o, təşkilatın sifarişi ilə ekranlaşdırılan “Qarabağın gözü yolda” adlı qısametrajlı film barədə məlumat verib.

Millət vəkilləri Rəfael Cəbrayılov və Dilarə Cəbrayılova çıxış edərək, 1998-ci ildən 31 martın ölkəmizdə Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd edilməsindən, 1992-ci ilin fevralında ermənilərin Xocalı şəhərinin əhalisinə misli görünməyən divan tutmasından danışıblar. Bu tarixi həqiqətlərin dünyaya çatdırılmasında bədii və sənədli ekran əsərlərinin əhəmiyyəti vurğulanıb.

Filmin rejissoru Ümid Amin ekran işində vətənpərvərliyin Milli Qəhrəman Mübariz İbrahimovun timsalında təsvir edilməsinin təsadüfi olmadığını və tamaşaçılara qələbə əzmini aşılamaq istədiklərini deyib.

Çıxışların ardınca “Qarabağın gözü yolda” filmi nümayiş olunub.

# Faciəmizin “mim” dili

Bizim pantomimaçılar, yəni Azərbaycan Dövlət Pantomima Teatrı illərdir ki, Azərbaycan tamaşaçısına bu əngin və unikal janrı sevdirməyə çalışır. Maraqlı və zəngin repertuarı olan və hər səhnə işində bir ideyanı hərəkət estetikasında ustalıqla təqdim edən teatrın növbəti sənət nümayişinə yığışdıq. Yaradıcı heyətin fevral ayında ilk tamaşasını Bolqarıstana səfər zamanı uğurla təqdim etdiyi “Xocalı bu olub” tamaşası 31 mart – Azərbaycanlıların Soyqırımı Günü ərəfəsində bu dəfə yerli tamaşaçılara göstərildi...

Hərəkətlər dilə gəldi – əllər haray qopardı, ayaqlar qanda üzdü, dodaqlar aman deyə nalə etdi, saçlar sərt küləkdə sovruldu, gözlər hədəqəsindən çıxdı, ruhlar göyün yeddinci qatına yetişdi... Amma səssiz, sözsüz, dilsiz-ağızsız. Susqun dilləndi ki, ona baxan dilavərlər dilə gəlsinlər. Hər an od olub cismimizi yandıran, qurğuşun kimi boğazımıza dolan gerçəyi dilləndirsinlər. Öncədən bizlərə bəlli olan “Bizim burda göstərəcəklərimiz Xocalıda baş verənlərin bir faizi belə deyil. Amma siz bizi də başa düşün. Bizim hər məşqimiz bir Xocalı hadisəsini yaşamağa başa gəlir ki, bunu da yaşamaq çox çətindir” həqiqəti də qulağımızı cingildətdi.

Tamaşa teatrın Xocalı soyqırımına, mənfur qonşularımızın başımıza gətirdiyi müsibətə həsr olunub. Quruluş və plastik həll üzrə usta rejissor, Xalq artisti Bəxtiyar Xanızadə, quruluşçu rəssamı Sənubər Səmədova olan tamaşa Xocalı sakinlərinin faciəsini əks etdirir. Şad gündən faciəyə, səadətdən məşəqqətə, cənnətdən cəhənnəmə yuvarlanan sadə, dinc insanların faciəsini.



Tamaşa toy səhnəsi ilə başlanır. Xocalıda çalınan sonuncu toy səhnəsi ilə. “Vağzalı”, “Mirzəyi” sədaları altında büsat qurulub. Tamaşanın musiqi tərtibatını edən Bəhruz Əhmədli hərəkətləri tamamlayan seçkin melodiyalarla bizi o sonuncu toya, qarlı gecəyə, amansız qırğına elə ustalıqla aparır ki, özümüz də hiss etmədən hadisələrin içinə düşürük.

Bütün bunlardan öncə qaranlıq səhnədə bir işıq yanır. Hiddətlə əlindəki xəncəri itiləyən insan ovçusu gözləmədədir. Qımırından nəyə tamah etdiyi aşkar görünür. O da toya tələsir, özü də çox böyük həvəslə. Dayanmadan qaçır, qaçır. Əməkdar artist Bəhruz Əhmədli rolunu başdan sona elə ustalıqla oynadı ki, tamaşaçının mütləq nifrətini qazana bildi. Deməli, obrazı, ifası alınmışdı.

O, yol gələrkən hər şeydən xəbərsiz Xocalı qadınları qırmızı lentli xonçaları ilə bəyin ətrafında dövrə vurur, musiqinin ənginliyində səadət qəhqəhələri çəkirlər.

Bəy (Əməkdar artist Elman Rəfiyev) bütün plastik bacarıqlarını ortaya qoyaraq gah rəqs edir, gah da həyəcanla gəlinin mağara təşrifini gözləyir. Bəyaza bürünmüş sərvboylu gəlin (Əməkdar artist Səbinə Hacıyeva) ürkək addımlarla irəliləyir. Sevib-seçdiyinin yanında dayanıb sevgi ilə yarını süzür. Onlara heyranlıqla baxan yaxınları, sevgi ilə qucaqlayan əzizləri bir neçə dəqiqədən sonra baş verəcəklərdən bixəbərdirlər.

Musiqinin səsi xırp kəsilir. Allah bilir, hansı korbucaqdan atılan güllə toy iştirakçılarından birini yerə sərir. Ardınca top-tüfəng yağışı başlayır. Hərə bir yana pərən-pərən olur. Zülmət çökür və qulaqbatıran çığırtılar gecənin qaranlığını dəlir.

Küləyin uğultusu çovğunun sovurduğu adamları bezar edib. Can çəkişə-çəkişə irəliləyirlər. Ümidsiz yolçuların ən yaşlısı – ata (Nurlan Rüstəmov) vidalaşdığı yurduna həsrətlə baxaraq baş verəcəklərin dəhşətində qızına (Solmaz Bədəlova) sarılır. Qaçanların içində bir də ana (Əməkdar artist Nargilə Qəribova) var. Qucağına sıxdığı qundaqdakı körpəsinə baxıb çarəsiz fəryad edən ana. Körpə durmadan ağlayır, çığırır, sanki o da hamıya, hər şeyə belə üsyan edir. Qadınlar hərəsi bir hovur körpəni kiritməyə çalışır. Amma o məsum susmur. Çarəsiz ana titrəyən əllərini uşağının ağzına basır. N.Qəribovanın qatil anası çox dəhşətli və inandırıcı alınmışdı.

Amma artıq gec idi, düşmən onları haqlamışdı. Xəncəri qanlı dəstəbaşı (B.Əhmədli) və onun sadiq qulları, qana susamış icraçıları (Elxan Şahalıyev, Cavad Nuriyev) özlərini yetirdilər.

Zülm də bundan sonra başladı. Gəlin ərinin gözləri qarşısında təcavüzə məruz qaldı, müqavimət göstərən ər işgəncə ilə öldürüldü, qızlar (Leyla Atayeva, Nuridə Musabəyli) saçlarından sürünüb əzabla qətlə yetirildi, ahıl ata döyülərək məhv edildi... Qaçıb qurtulan körpəsinin cansız bədənini qucan anadır. Heyhat, ona da aman olmadı. Ölümdən betər oldu. Çığıran, boğulmasına inad sağ qalan körpənin canını cani aldı. Həm də yerdən-yerə çırparaq. Sonra da başına hava gələn anasını...

Əzab, zülm, səhnə-sənət məşəqqətinin 45 dəqiqəlik pantomiması da belə bitdi. Daha doğrusu, həm aktyor, həm də tamaşaçı üçün faktın təsvir-təhlilnümayiş mərhələsi yekunlaşdı.

Nəticədə fərqli mizanlardakı dinamika, keçidlərdəki ekssentriklik, psixoloji taktlardakı sarsıdıcı quruluş-həll həmlələri tamaşaçını darmadağın ruh halına, sarsılmış əhvala təslim etdi. Aradakı sükutu xısın hıçqırtılar və zaldan səssiz tarix səyahətimizin usta bələdçilərinə gecikən alqış pozdu...

**Həmidə NİZAMİQIZI**

# Tarixi həqiqətləri dünyaya çatdırmaq təkcə peşə deyil, həm də vətəndaşlıq borcudur

Sabir Şahtaxtı (Hacıyev) 2014-cü ildən Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) qardaş Türkiyədəki bürosunun rəhbəri kimi fəaliyyət göstərir. Siyasi elmlər üzrə fəlsəfə doktorudur, ermənilərin azərbaycanlılara qarşı törətdikləri cinayətlərlə bağlı kitab və məqalələrin müəllifidir. Əsərləri türk, rus, fars, ingilis dillərində nəşr edilib.

Ermənilərin türk-müsəlman əhaliyə qarşı soyqırımları tarix boyu müxtəlif formalarda həyata keçirilib. Ermənilərin təcavüzkar əməlləri ilə bərabər, tarixi saxtakarlıq cəhdləri də davam edir. Bu cəhdlərə qarşı tarixi həqiqətlərin üzə çıxarılması və dünyaya yayılmasında ölkəmizdən kənarda fəaliyyət göstərən media təmsilçilərinin üzərinə xüsusi məsuliyyət düşür.

Həmkarım Azərbaycanlıların Soyqırımı Günü ərəfəsində bu mövzuda fikir və düşüncələrini bizimlə bölüşdü.

- Ermənilərin digər millətlərə qarşı düşmənçiliyi, erməni təcavüzkarlığı çoxistiqamətli, təhlükəli bir fəaliyyətdir. Çünki onun əsasını qeyri-sağlam, bəşəri dəyərlərə ziddi, insanlıq əleyhinə olan prinsiplər təşkil edir. Hər dəfə dəyişən ictimai-siyasi şəraitdə fəallaşan erməni millətçi dairələri məqsədə çatmaq üçün cinayəti fəaliyyət norması kimi qəbul ediblər. XX əsrdə Azərbaycan xalqının tarixində qara səhifələr var: 1918-ci ilin mart soyqırımı, 1990-cı ilin 20 Yanvar faciəsi və 1992-ci ilin Xocalı soyqırımı. Bu acılı günlərin hər biri saxta “erməni məsələsi”ndən doğaraq Azərbaycan xalqının qanına susayan erməni təcavüzkarlığı ilə birbaşa bağlıdır. Sadaladığımız cinayətlərin hər biri tamamilə fərqli bir ictimai-siyasi şəraitdə baş verib. Deməli, hiyləgər düşmən növbəti tarixi cinayəti törətmək üçün hər an yeni bir fürsəti gözləməkdədir.

Təcavüzkar Ermənistan dövləti və erməni kilsəsinin rəhbərliyi ilə istiqamətləndirilən erməni millətçi dairələri tarixdə ilk dəfədir ki, törətdikləri bəşəri cinayətlərlə və əsasız iddiaları ilə bağlı güclü bir müqavimətlə rastlaşıblar. Bunun başlıca səbəbi Azərbaycanın müstəqilliyi, dövlətimizin güc və qüdrətinin artmasıdır. Ümummilli lider Heydər Əliyev tərəfindən 26 mart 1998-ci ildə imzalanan “Azərbaycanlıların soyqırımı haqqında” fərman erməni təcavüzkarlığının qarşısını almaq, xalqımıza qarşı törədilən tarixi cinayətləri öyrənmək və dünyaya tanıtmaq istiqamətində bir yol xəritəsidir. Hər bir azərbaycanlı tarixçi, tədqiqatçı-yazar, jurnalist və ümumiyyətlə, xalqını, vətənini sevən ziyalı bu yol xəritəsi əsasında tarixi gerçəklərin beynəlxalq ictimaiyyətə çatdırılması yönündə imkan və bacarığını əsirgəməməlidir.

XX əsrin ilk illərindən başlayaraq erməniləri Osmanlı dövlətinə qarşı silahlandıran və qiyamlara təhrik edən böyük güclər müasir dövrdə Türkiyəni davamlı olaraq saxta “erməni soyqırımı” iddiası ilə məşğul etməyə çalışırlar. Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə qarşı əsassız ərazi iddiasından doğan işğal faktı da göz önündədir. Odur ki, biz ölkəmizdən kənarda çalışan media təmsilçiləri olaraq yerli mətbuatda, konfranslarda çıxışlarımızda davamlı olaraq bu məsələləri paralel şəkildə qaldırmağa çalışırıq. Azərbaycanın tarixi və müasir həqiqətlərini dünya ictimaiyyətinə, eləcə də qardaş ölkəyə çatdırmaq istiqamətində ayrı-ayrı qurumlar, eləcə də QHT-lər tərəfindən də böyük işlər görülür.

İstəyirik ki, hər bir məsələdə, eləcə də Dağlıq Qarabağ münaqişəsinə aid yazıların, reportajların hazırlanmasında faktlardan düzgün istifadə olunsun. AZƏRTAC-ın təmsilçiliyi olaraq Türkiyədə gördüyümüz işlərə gəldikdə isə, TRT-nin Azərbaycan radiosu, “Bengü türk” TV, o cümlədən İHA xəbər agentliyi, Avrasiya Araşdırmalar Mərkəzi (AVİM), EkoAvrasiya və digər xəbər mənbələrindəki çıxışlarımız və o cümlədən, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixinə və müasir vəziyyətinə aid nəşrlərimiz maraqla qarşılanır. Qarşıda duran əsas məqsədlərdən biri bu işləri Türkiyənin ayrı-ayrı vilayətlərində fəaliyyət göstərən yerli KİV-lərlə də həyata keçirməkdir. Ötən il Prezident İlham Əliyevin imzaladığı “1918-ci ildə azərbaycanlıların soyqırımının 100 illiyi haqqında” sərəncamda qarşıya qoyulan vəzifələrdən irəli gələn çox sayda çıxışlarımız olub. O cümlədən, “Xocalıya ədalət!” beynəlxalq məlumatlandırma kampaniyasına aid işlərə böyük diqqət göstəririk.

Bu bizim media təmsilçisi olaraq fəaliyyətimizin strateji bir istiqamətidir. Bir də var vətəndaşlıq borcu. Fəaliyyətdə bu iki borcu birləşdirə biləndə daha səmərəli nəticələr alınır. Azərbaycan dövləti hər bir azərbaycanlının qürur mənbəyidir. Xalqımız üçün milli varlıq olan bu dövlətə, xalqımızın ümumi maraqlarına xidmət etməyə aid hər bir iş öz-özlüyündə çox şərəflidir.

**Mehparə SULTANOVA**
**Ankara**

# Krım elindən başlayıb Bakıda bitən ziyalı ömrü

Ötən əsrin 30-cu illər repressiyası əsasən ömrünü mənsub olduğu xalqın işıqlı gələcəyinə həsr edən ziyalıları, yazıçı və şairləri, bir sözlə, mütərəqqi fikirli adamları əhatə edirdi. Təkcə tatar xalqının deyil, ümumilikdə türk dünyasının birliyi uğrunda mübarizə aparan Həsən Səbri Ayvazov da milli düşüncənin yaşaması naminə ömrü yarıda kəsilən maarif xadimlərindən idi.

Həsən Səbri Ayvazov 6 may 1878-ci ildə Krımın Alupka qəsəbəsində anadan olub. Mədrəsədə oxuyur, ali təhsil məqsədilə İstanbula gedir. Burada ali pedaqoji təhsil alır və siyasi proseslərlə maraqlanır. İctimai fəallığı nəticəsində bir neçə tələbə yoldaşı ilə birlikdə həbs edilir. Lakin Rusiya təbəəsi olduğu üçün hökm dəyişdirilir və sadəcə ölkədən çıxarılır. Həsən Səbri bir müddət Krımda fəaliyyət göstərir. Soydaşlarını



çarizmin əsarətindən qurtarmaq barədə düşünür. Dövri mətbuatda mütəmadi çıxışlar edir. Müəllifin həmin dövrdə qələmə aldığı “Nədən bu hala qaldıq?” pyesi 1906-cı ildə Bakıda “Füyuzat” jurnalında işıq üzü görür. Bir il sonra əsər kitab şəklində çap olunur və səhnəyə qoyulur.

Rusiya II Dövlət Dumasına Krımdan deputat seçilən istedadlı publisist, islahatçı görüşləri ilə seçilən Rəşid Mehdiyev “Vətən xadimi” adlı qəzetin nəşrinə icazə alır. H.S.Ayvazov qəzetin redaktoru olur. Nəşrin ilk sayı 1 may 1906-cı ildə Qarasubazarda işıq üzü görür. H.Səbrinin “Həyat”ın qürubundan, “Füyuzat”ın tülundan hasil olan təəssüratım” adlı ilk məqaləsi qəzetin 13 noyabr 1906-cı il 2-ci sayında dərc edilir. Ancaq “Vətən xadimi” qəzeti 1908-ci ildə hökumət tərəfindən bağlanır.

H.Səbri milli ruhlu çıxışları ilə hökumət dairələrinin diqqətini çəkir, onu nəzarətə götürürlər. Dostları onun bir müddət gözdən uzaq olmaq üçün Krıma qayıtmasını məsləhət bilsələr də, maarif xadimi Moskvaya gedir və Lazarev İnstitutunun Şərqşünaslıq fakültəsində işə düzəlir. Özünü İsmayıl bəy Kaspıralının tələbəsi hesab edən H.Səbri bir müddət “Tərcüman” qəzetinin redaktoru olur. İsmayıl bəy ölüm ayağında ikən vəsiyyətini də məhz H.Səbriyə danışır...

1917-ci ilin fevralında Rusiyada hökumət çevrilişi olur. Martın 26-da Krım Xalq Cümhuriyyəti elan edilir və Noman Çələbi Cihanın rəhbərliyi altında Krım Milli Hökuməti qurulur. Ölkədə parlamentli respublika yaradıldığı elan edilir. H.Səbri yeni yaradılan parlamentə sədr seçilir. Lakin Sovet Rusiyası Krım tatar hökumətini tanımır. O, vətəni çətin durumdan qurtarmaq üçün İstanbula gedir. Geri dönərkən Krıma yox, Bakıya gəlir. Azərbaycanda latın əlifbasına keçmək ideyasını dəstəkləyən H.Səbri 1927-ci ildə “Latın əlifbasına dair”, 1928-ci ildə “Qiraət kitabı”, “Meyus şairlərimiz” və başqa əsərlərini çap etdirir. Haşım bəy Vəzirovla birlikdə U.Şekspirin “Otello” faciəsini, daha sonra rus və bir sıra Avropa yazıçılarının əsərlərini ana dilinə tərcümə edir. Həmçinin Azərbaycan teatrlarında tamaşaya qoyulan əsərlər haqqında rusdilli mətbuata məqalələr yazır. Bütün bunlara baxmayaraq, H.Səbri Azərbaycanda milli düşüncənin inkişafına mühüm töhfələr vermiş Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu və başqaları ilə eyni sırada kəskin tənqid edilir. 1932-ci ildə Pedaqoji İnstitutdan xaric edilən görkəmli ziyalı 1937-ci il aprelin 4-də həbs edilir. Bir il sonra o, əksər həmfikirləri kimi güllələnir.

**Savalan FƏRƏCOV**

# Hüsnü-cəmal, əqli kamal...

## Ali məktəb tələbələri arasında bədii qiraət müsabiqəsi

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində "Nəsimi ili" çərçivəsində silsilə tədbirlər planı hazırlanıb. Həmin tədbirlərdən birinə – mütəfəkkir şairə həsr olunan "Hüsnü-cəmal, əqli kamal" adlı ali məktəblərarası bədii qiraət müsabiqəsinə aprelin 2-də start verilib.

Aprelin 17-dək davam edəcək müsabiqədə həmçinin azərbaycanlı tələbələrin Nəsiminin şeirlərini əcnəbi dildə qiraət etməsi də nəzərdə tutulub. 18-27 yaşlı gəncləri əhatə edən müsabiqənin əsas məqsədlərindən biri Nəsimi irsinin müasir humanitar düşüncənin tələbləri kontekstində aktuallığının vurğulanması, milli mədəni-mənəvi dəyərlərin təbliğidir.

İki mərhələdən ibarət müsabiqənin yekunları 20 apreldə Beynəlxalq Muğam Mərkəzində keçiriləcək mərasimdə elan olunacaq.

# İslam dünyası gənc klassik musiqi ifaçıları yenə Bakıda yarışacaqlar

"Kainat" Gənclik Mərkəzinin layihəsi üzrə ənənəvi olaraq keçirilən İslam dünyası gənc klassik musiqi ifaçılarının (20 yaşadək) beynəlxalq müsabiqəsi bu il 8-ci dəfə reallaşacaq.

Layihə İslam elm, təhsil və mədəniyyət təşkilatı – İSESCO-nun, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin dəstəyi, Xarici İşlər, Mədəniyyət nazirliklərinin iştirakı və Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının təşkilatçılığı ilə keçirilir.

Aprelin 1-2-də Bakı Musiqi Akademiyasında müsabiqənin Azərbaycan üzrə seçim turları keçirilib. Müsabiqəyə Misir, Türkiyə, Mərakeş, İran, Başqırdıstan, Özbəkistan, Qazaxıstan, Tacikistan və Azərbaycandan yaşı 20-dək olan klassik musiqi ifaçıları qatılacaq.

Beynəlxalq müsabiqənin yekun tədbiri aprelin 10-da Azərbaycan Dövlət Akademik Filarmoniyasının Kamera və orqan musiqisi zalında keçiriləcək.

# Mədəniyyət Nazirliyi qeyri-hökumət təşkilatlarının fəaliyyətinin dəstəklənməsi məqsədi ilə 2019-cu il üçün müsabiqə elan edir

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 26 avqust 2014-cü il tarixli 292 nömrəli Qərarı ilə təsdiq edilmiş "Qeyri-hökumət təşkilatları tərəfindən mədəniyyət sahəsində keçirilən tədbirlərin dövlət maliyyələşdirilməsi Qaydası"nın 2-ci bəndinə uyğun olaraq, mədəniyyət sahəsində qeyri-hökumət təşkilatlarının fəaliyyətinin dəstəklənməsi məqsədi ilə 2019-cu il üçün Mədəniyyət Nazirliyi sərbəst mövzu üzrə müsabiqə elan edir.

"Qeyri-hökumət təşkilatları tərəfindən mədəniyyət sahəsində keçirilən tədbirlərin dövlət maliyyələşdirilməsi Qaydası"nın 2.2-ci bəndinə uyğun olaraq, müsabiqədə iştirak etmək istəyən QHT-lər 2019-cu il may ayının 1-dək ərizələrini müsabiqənin şərtlərinə uyğun aşağıdakı sənədlərlə birlikdə nazirliyə təqdim etməlidir.

- **Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Müsabiqə Komissiyasının sədrinə məktub;**
- **QHT-nin dövlət qeydiyyatına alınması barədə hüquqi şəxslərin dövlət reyestrindən çıxarışın surəti;**
- **Tədbirin keçirilməsi nəzərdə tutulan mədəniyyət sahəsində mövcud vəziyyətin təhlili;**
- **Tədbirlə bağlı qarşıya qoyulan vəzifələrin əhatə olunması və gözlənilən nəticələr barədə qısa məlumatlar;**
- **Tədbirin keçiriləcəyi yer və tarix;**
- **Tədbirin keçirilməsi ilə bağlı xərclər smetası (müvafiq hesablamalar və əsaslandırıcı sənədlərlə birlikdə);**
- **Tədbirin təşkilatçıları və iştirakçıları ilə bağlı məlumatlar.**

**Ünvan:**
AZ 1000, Bakı şəhəri, Hökumət evi, Ü.Hacıbəyli küçəsi 40.

Tel: (012) 498 79 53
(012) 498 20 62

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin İnformasiya və ictimaiyyətlə əlaqələr şöbəsi**
**Əlaqələndirici şəxs:**
Elnarə Quliyeva
E-mail: qht.medeniyyet@gmail.com

Müsabiqədə iştirak etmək üçün sənədlərin anket formasını nazirliyin saytının (mct.gov.az) "Elanlar" bölməsindən əldə etmək olar.

# Buktreyler festivalına işlərin qəbulu başa çatıb

Aprelin 1-də IV Buktreyler festivalına buktreylerlərin qəbulu başa çatıb. Festivalın təsisçisi və direktoru, kinoaktyor Ruslan Sabirli bildirib ki, təqdim olunan buktreylerlər festivalın tələblərinə uyğunluğu yoxlanıldıqdan sonra münsiflər heyətinə təqdim ediləcək.




Buktreyler – kitabın məzmununu vizuallaşdırmaqla onun oxucular arasında təbliğinə istiqamətlənmiş, ən parlaq və tanınan anlarını özündə əks etdirən video-çarx və ya treylerdir.

"Kitabı tanıdın, kitabla tanının" sloqanlı festivalın məqsədləri kitab və mütaliənin cəmiyyətimizdə təbliği, mütaliəyə münasibətin yaradıcı formalarının inkişafı və dəstəklənməsi, kino sahəsində istedadlı və yaradıcı gənclərin (rejissor, operator, rəssam, aktyor, qrimçi və s.) üzə çıxarılması, buktreylerlərin incəsənət və biznesdə bir istiqamət kimi inkişafıdır.

Festival Mədəniyyət Nazirliyi, Beynəlxalq Muğam Mərkəzi, C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının təşkilati dəstəyi, Azercell şirkətinin tərəfdaşlığı ilə keçirilir.

Festival barədə ətraflı məlumatı www.booktrailer.az saytından və ya festivalın sosial şəbəkələrdəki səhifələrindən əldə etmək mümkündür.

# SABAH-ın sənət üfüqləri

Xəbər verdiyimiz kimi, Rusiya Teatr Sənəti İnstitutunda "QİTİS – ustad dərsi" adlı festival keçirilib. Tələbə-aktyorların özünü realizə meydanı olan tədbirdə ölkəmizi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) SABAH qrupu təmsil edib. Təmsilçilərimizin təqdim etdiyi nümunə – U.Şekspirin faciəsi əsasında hazırlanmış "Otello əfsanəsi" adlı mistik ballada maraqla qarşılanıb.

SABAH qrupunun müəllimi, rejissor Gümrah Ömərin quruluş verdiyi səhnə əsəri festival jürisinin rəyinə əsasən "Ən orijinal tamaşa" nominasiyası üzrə mükafata layiq görülüb. Otello rolunu oynayan Ziya Ağa isə "Ən yaxşı kişi rolunun ifaçısı" nominasiyası üzrə qalib olub. Qeyd edək ki, tamaşada rolları ADMİU-nun aktyor sənəti ixtisası üzrə 3-cü kurs tələbələri (kurs rəhbəri dosent Fikrət Məlikov) ifa ediblər.

SABAH Mərkəzinin rəhbəri Böyükxanım Məmmədbəyova, müəllimlər – Xalq artisti Mehriban Zəki, Gümrah Ömər, Ceyhun Dadaşov, "Səda" Tədris teatrının əməkdaşı Amid Qasımovun da daxil olduğu heyət festival zamanı səhnə danışığı, səhnə hərəkəti, aktyor sənəti fənləri üzrə müxtəlif ustad dərslərində və seminarlarda iştirak edib.



Səfər təəssüratlarını bizimlə bölüşən B.Məmmədbəyova Rusiyaya növbəti səfərin yaddaqalan olduğunu dedi: "SABAH qruplarının 4 illik fəaliyyəti dövründə Polşa, Rusiya, Moldova və Türkiyədə festivallarda iştirak etmişik. Universitetimizin beynəlxalq əməkdaşlıq etdiyi ölkələr və ali məktəblər arasında Rusiya Dövlət Teatr Sənəti İnstitutu mühüm yer tutur. Səfər çox məhsuldar oldu və tələbələr üçün yeni üfüqlər açıldı. QİTİS-in professor və müəllim heyəti tərəfindən aktyor sənəti, səhnə hərəkəti, vokal, səhnə danışığı fənləri üzrə keçirilən ustad dərsləri də tələbələr üçün çox maraqlı idi.

Səfər yeni perspektivlər baxımından da məhsuldar oldu. Türkiyəyə – Dənizli Teatr festivalına dəvət aldıq. Özbəkistan Dövlət Mədəniyyət və İncəsənət İnstitutunun rektoru bizi 2020-ci ildə ölkələrində keçiriləcək teatr festivalına dəvət etdi".

Tamaşanın rejissoru Gümrah Ömər də bu kimi festivalların təhsil və təcrübə baxımından xüsusi əhəmiyyət kəsb etdiyini deyir: "Bu festival bizə özümüzə baxmağa, öz potensialımızı görməyə imkan yaratdı. Festival çərçivəsində aktyor sənəti ilə bağlı da ustad dərsləri oldu. Hazırda teatr sistemində, aktyor-rejissor işi prosesində maraqlı bir tendensiya müşayiət olunmaqdadır ki, bunu da o dərslərdə bir daha görmüş olduq. Məlum oldu ki, köhnə teatr məktəbi ənənəsində gənclər özlərini rahat ifadə edə bilmirlər. Bunun üçün zaman, təcrübə, gərgin əmək lazımdır. Məsələnin qoyuluşu təxmini belə idi: istedadlı, potensiallı gənc qısa və asanlıqla teatr mühitinə necə adaptasiya ola bilər. Məhz bizim tamaşada, onun səhnə yozumunda, aktyorla iş prosesində də bu məsələləri önə çəkmişdik və tamaşamızın seçilməsi ilə də bu öz nəticəsini vermiş oldu".

"Ən yaxşı kişi rolunun ifaçısı" nominasiyası üzrə qalib tələbə-aktyor Ziya Ağa ilk dəfə iştirak etdiyi xarici müsabiqənin onun üçün müstəsna önəm daşıdığını deyir: "Biz orada yeni məktəb gördük və o təhsil sisteminin yeni, maraqlı metodlarını mənimsəmək imkanı qazandıq. Səhnə hərəkəti, səhnə danışığı, aktyorluq ilə bağlı ustad dərslərində, tanınmış mütəxəssislərin mühazirələrində olduq. Düşünürəm ki, bu biz tələbələr üçün əsl bayram idi və bu şəraitə görə təşkilatçılara təşəkkür edirəm. Maraqlıdır ki, festivala bədnam qonşularımız da eyni əsər ilə gəlmişdilər. Bu bizi əsl sənət mübarizəsinə səslədi. Sevindirici haldır ki, bu sənət döyüşündə biz qalib olduq. Buna görə də həm rejissorumuz Gümrah müəllimə, həm də bizə sənətin sirlərini öyrədən digər müəllimlərimə təşəkkür edirəm".

**HƏMİDƏ**

# BMA-nın tələbələri beynəlxalq müsabiqədə uğur qazanıblar

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) Nəfəs və zərb alətləri kafedrasının dosenti, Əməkdar incəsənət xadimi Rüfət Axundzadənin tələbələri "Testene Art Baku" beynəlxalq müsabiqəsində iştirak ediblər.

BMA-dan bildirilib ki, tələbələrdən Turanə İsayeva birinci, İsa Məmmədzadə isə ikinci yerə layiq görülüblər. Qaliblər təşəkkürnamə ilə təltif ediliblər.

# "Generalın qayıdışı"

Tədqiqatçı alim, yazıçı-publisist, filologiya elmləri doktoru Abid Tahirlinin "Generalın qayıdışı" pyesi "Elm və təhsil" nəşriyyatında çapdan çıxıb.




8 pərdəli iki hissədən ibarət əsərdə görkəmli şəxsiyyət İsmayıl bəy Qutqaşınlının (1809-1861) ordudan tərxis olunduqdan sonrakı həyat və fəaliyyətindən bəhs edilir.

Fransız dilində yazılan və Polşada nəşr olunan "Rəşid bəy və Səadət xanım" povesti ilə çağdaş bədii nəsrimizin, eləcə də doğma dildə yazdığı "Səyahətnamə" əsəri ilə publisistikanın səyahət oçerki janrının əsasını qoyan, Rusiya İmperator Coğrafiya Cəmiyyəti Qafqaz bölməsinin və Qafqaz Kənd Təsərrüfatı Cəmiyyətinin həqiqi üzvü, ilk azərbaycanlı general İsmayıl bəy Qutqaşınlının doğma Vətənə qayıtdıqdan sonrakı maraqlı, zəngin, eyni zamanda kədərli həyatının diqqətçəkən epizodları əsərdə əksini tapıb.

## Xatirə təqvimi — 31 mart – 4 aprel

### Azərbaycan

**31 mart 1861** – Azərbaycan xanəndəlik sənətinin görkəmli nümayəndəsi, Xalq artisti Cabbar Qaryağdıoğlu (1861 - 20.4.1944) Şuşada doğulub.

**31 mart 1936** – Xalq artisti, bəstəkar Rafiq Babayev (1936 - 19.3.1994) anadan olub. "Cəngi" folklor-caz kollektivinin yaradıcısı olub.

**1 aprel 1916** – Tanınmış şair Ənvər Əliverdi oğlu Əlibəyli (1916 - 7.5.1968) anadan olub.

**1 aprel 1924** – Xalq artisti, müğənni Abdulla Murtuz oğlu Babayev (1924-2015) Naxçıvan Muxtar Respublikası Babək rayonunun Tumbul kəndində anadan olub.

**1 aprel 1933** – Yazıçı-ssenarist, filoloq Vitali Abramoviç Kalmanovski (1933 – 16.6.2014) Bakıda anadan olub.

**1 aprel 1954** – Opera müğənnisi, teatr xadimi Əhməd Bəşir oğlu Ağdamski (Bədəlbəyli; 5.1.1884 - 1954) vəfat edib.

**1 aprel 1981** – Xalq şairi, Sosialist Əməyi Qəhrəmanı Rəsul Rza (Rəsul İbrahim oğlu Rzayev; 19.5.1910 – 1981) vəfat edib. Əsərləri: "Qız qalası", "Lenin", "Qızılgül olmayaydı" (poema), «Rənglər» (şeirlər silsiləsi) və s.

**2 aprel 1870** – Şair Azər Məcid oğlu İmaməliyev (Azər Buzovnalı; 1870 - 8.8.1956) Bakının Buzovna kəndində doğulub. Fars dilindən ədəbi tərcümələr edib.

**2 aprel 1931** – Xalq rəssamı Altay Əmir oğlu Hacıyev (1931 – 12.2.2019) anadan olub. Qrafika nümunələrinin, portretlər silsiləsinin ("Məhsəti Gəncəvi", "Sara Xatun", "Xurşudbanu Natəvan") və s. əsərlərin müəllifidir.

**3 aprel 1908** – Azərbaycanın ilk akademik-filosofu Heydər Nəcəf oğlu Hüseynov (1908-1950) İrəvanda doğulub.

**3 aprel 1922** – Tarixçi və arxeoloq, dünyanın ən qədim insan məskənlərindən olan Azıx paleolit düşərgəsinin ilk tədqiqatçısı Məmmədəli Murad oğlu Hüseynov (1922-1994) Qazax rayonunun Molla Cəfərli kəndində anadan olub.

**4 aprel 1913** – Xalq artisti Əli Yusif oğlu Zeynalov (1913 - 6.1.1988) Salyanda doğulub. Milli Dram Teatrında çalışıb. Çəkildiyi filmlər: "Bir qalanın sirri", "Həyat bizi sınayır" və s.

**4 aprel 1898** – Mədəni-maarif xadimi Məryəm Teymur qızı Bayraməlibəyova-Məlik-Yeqanova (1898-1987) Lənkəranda anadan olub.

**4 aprel 1931** – Teatrşünas, professor, AMEA-nın müxbir üzvü İnqilab Saleh oğlu Kərimov (1931 - 22.7.2011) Göyçayda anadan olub.

**4 aprel 1935** – Xalq artisti Muxtar Qəmbər oğlu Maniyev (1935 – 22.12.2016) Bakıda doğulub. 50-dən çox filmdə ("Bizim Cəbiş müəllim", "Babək", "Nəsimi", "Nizami" və s.) maraqlı obrazlar yaradıb.

### Dünya

**31 mart 1596** – Fransız filosofu Rene Dekart (Rene Descartes; 1596 - 11.2.1650) anadan olub.

**31 mart 1732** – Avstriya bəstəkarı Frans Yozef Haydn (Franz Joseph Haydn; 1732-1809) anadan olub.

**31 mart 1914** – Meksika şairi, kulturoloq, ədəbiyyat üzrə Nobel mükafatı (1990) laureatı Oktavio Pas (Octavio Paz; 1914-1998) anadan olub.

**1 aprel 1809** – Rus yazıçı-dramaturqu Nikolay Vasilyeviç Qoqol (Yanovski; 1809 - 4.3.1852) anadan olub. "Ölü canlar" romanı, "Müfəttiş", "Evlənmə" pyesləri və s. əsərlərin müəllifidir.

**1 aprel 1873** – Rus bəstəkarı, pianoçu Sergey Vasilyeviç Raxmaninov (1873-1943) anadan olub. 1917-ci ildə Amerikaya mühacirət edib.

**2 aprel 1805** – Danimarkalı yazıçı, dünya şöhrətli nağılbaz Hans Kristian (Christian) Andersen (1805-1875) anadan olub. Andersenin xatirəsinə ehtiram olaraq 2 aprel "Beynəlxalq uşaq kitabı günü" elan olunub. 1967-ci ildən Uşaq Kitabları üzrə Beynəlxalq Şuranın təşəbbüsü ilə qeyd edilir.

**2 aprel 1840** – Fransız yazıçısı, naturalizm ədəbi cərəyanının nəzəriyyəçisi Emil Zolya (Emile Zola; 1840 - 29.9.1902) anadan olub.

**3 aprel 1783** – Amerika yazıçısı, tarixçi Vaşinqton İrvinq (Washington İrving; 1783-1859) anadan olub.

**3 aprel 1918** – Ukrayna yazıçısı Oles (Aleksandr) Qonçar (1918-1995) anadan olub.

**3 aprel 1924** – Amerika aktyoru Marlon Brando (1924-2004) anadan olub. Filmləri: "Limanda" ("Oskar", 1954), "Xaç atası" ("Oskar", 1972), "Parisdə sonuncu tanqo" və s.

**4 aprel 1818** – İngilis yazıçısı, macəra romanlarının ("Başsız atlı" və s.) müəllifi Mayn Rid (Thomas Mayne Reid; 1818-1883) anadan olub.

**4 aprel 1932** – Rus kinorejissoru və ssenaristi Andrey Tarkovski (1932-1986) anadan olub.

**Hazırladı: Vüqar ORXAN**

## AFİŞA — 3-5 aprel

**Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı (Nizami küç. 95)**

| | | |
|---|---|---|
| 3 aprel | L.Minkus - "Paxita"; F.Şopen - "Şopeniana" (birpərdəli baletlər) | 19.00 |

**Azərbaycan Dövlət Akademik Musiqili Teatrı (Zərifə Əliyeva küç. 8)**

| | | |
|---|---|---|
| 5 aprel | E.Sabitoğlu, V.Kolmanovski - "Bir dəfə Bağdadda" (rus dilində) | 19.00 |

**Azərbaycan Dövlət Akademik Rus Dram Teatrı (Xaqani küç. 7)**

| | | |
|---|---|---|
| 5 aprel | Elçin – "İblisin oyunları" (premyera) | 19.00 |

**Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı (Nizami küç. 72)**

| | | |
|---|---|---|
| 5 aprel | Y.Abramov, L.Bəyim - "Yarımçıq qalmış..." Aprel döyüşlərinin ildönümünə həsr olunur | 19.00 |

**Azərbaycan Dövlət Kukla Teatrı (Neftçilər pr. 36)**

| | | |
|---|---|---|
| 5 aprel | C.Barri - "Piter Pen" | 12.00 14.00 |
| | C.Rodari - "Çipollino" (rus dilində) | 16.00 |

**Azərbaycan Dövlət Akademik Filarmoniyası (İstiqlaliyyət küç. 2)**

| | | |
|---|---|---|
| 4 aprel | Sankt-Peterburq Musiqi Liseyi şagirdlərinin konserti | 19.00 |
| 5 aprel | Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri Dirijor Rauf Abdullayev, solist Azər Rzazadə (tenor) | 19.00 |

**Filarmoniyanın Kamera və orqan musiqisi zalı (28 May küç. 41)**

| | | |
|---|---|---|
| 5 aprel | Fidan Hacıyevanın Vokal musiqi məktəbinin konserti | 19.00 |

**Beynəlxalq Muğam Mərkəzi (Dənizkənarı Milli Park)**

| | | |
|---|---|---|
| 4 aprel | "Muğam Televiziya Müsabiqəsi - 2019" | 21.00 |

# Bakıda növbəti Mstislav Rostropoviç festivalı

Heydər Əliyev Fondu, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Mstislav Rostropoviç Fondunun təşkilatçılığı ilə 23-27 aprel tarixində Bakıda X Beynəlxalq Mstislav Rostropoviç Festivalı keçiriləcək.



Festivalda Rusiya, Almaniya, İsveçrə, İspaniyadan dünya şöhrətli musiqiçi və kollektivlər, o cümlədən Lozanna Kamera Orkestri, Boris Eyfmanın Akademik Balet Teatrı (Sankt-Peterburq), "Münchenklang" Orkestri iştirak edəcəklər.

Festival çərçivəsində Heydər Əliyev Sarayında aprelin 26-da Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri çıxış edəcək. Konsertin dirijoru Fuad İbrahimov, solisti Pablo Fernandes (cello) olacaq. Proqramda Cüzeppe Verdi, Kamil Sen-Sans və İqor Stravinskinin əsərləri səsləndiriləcək.

## "Eşqimi sönməyə qoymaram"

İyunun 7-də Heydər Əliyev Sarayında Xalq artisti Nisə Qasımovanın solo konserti keçiriləcək.



Konsert proqramında Nisə Qasımova repertuarında yer alan və musiqisevərlər tərəfindən sevilən "Sənsən həyatım", "Gözləyəcəm", "Eşqimi sönməyə qoymaram", "Qəşəngdir", "Sədaqətim var", "Yalvarıram", "Qayıtdım", "Azərbaycan qızıyam" və sair dillər əzbəri olan köhnə və yeni mahnılarını səsləndirəcək. Müğənni konsertdə həmçinin dünya xalqlarının mahnılarını ifa edəcək.

## Bazel şəhərində Azərbaycan filmi nümayiş olunub

İsveçrənin Bazel şəhərində keçirilən 14-cü Querfeld Mədəniyyətlərarası film festivalında "Azərbaycanın dostları" diaspor təşkilatının dəstəyilə "Tabutçunun yelləncəyi" qısametrajlı bədii filmi nümayişi etdirilib.



Almaniyada yaşayan gənc azərbaycanlı rejissor Elmar İmanovun 2012-ci ildə çəkdiyi ekran əsəri festivalın açılış filmi olaraq göstərilib və tamaşaçıların böyük marağına səbəb olub.

Nümayişdən əvvəl "Azərbaycanın dostları" diaspor təşkilatının rəhbəri Arzu Əliyeva tamaşaçılara ölkəmizin mədəniyyəti, musiqisi, kinematoqrafiyası barədə söz açıb, film haqqında məlumat verib.

"Tabutçunun yelləncəyi" sərt ata və onun oğlu arasında olan mürəkkəb münasibətləri təsvir edir. Film Amerika Kino Akademiyasının "Tələbə Oskarı" mükafatı da daxil olmaqla, bir çox mükafatlara layiq görülüb.

Festival çərçivəsində təşkilatçılar tərəfindən Azərbaycan mədəniyyətini və mətbəxini təqdim edən guşə də yaradılıb. Qonaqlar milli yemək və şirniyyatların dadına baxıb.

Xatırladaq ki, 2006-cı ildən ənənəvi olaraq keçirilən festival İsveçrədə yaşayan müxtəlif xalqların nümayəndələri tərəfindən təşkil olunur və mədəniyyətlərarası əlaqələrin gücləndirilməsinə, ölkədə tolerantlığın təşviqinə xidmət edir.

## Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti İstanbulda görüşlər keçirib

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva Türkiyəyə səfəri çərçivəsində İstanbul Böyükşəhər Bələdiyyəsi Mədəniyyət idarəsinin rəhbəri Rıdvan Duran və İstanbul Şəhər Teatrlarının direktoru Sedat Çakır ilə görüşlər keçirib.



Görüş zamanı G.Əfəndiyeva türk dünyası mədəni irsinin qorunması və təbliği ilə bağlı həyata keçirilən tədbir və layihələrdən, qurumun gələcək planlarından bəhs edib. Fond ilə İstanbul Şəhər Teatrlarının ortaq layihəsi – böyük şair-dramaturq Hüseyn Cavidin "İblis" pyesinin Türkiyədə tamaşaya qoyulması bu istiqamətdə mühüm addımlardan biri kimi vurğulanıb.

R.Duran öz növbəsində, türkdilli xalqların tarixi-mədəni irsinin qorunması, eləcə də onların həmrəyliyinin möhkəmləndirilməsi yönündə fond tərəfindən həyata keçirilən layihələri yüksək qiymətləndirərək türk dünyasının tanınmış ədibi H.Cavidin əsərinin İstanbulda səhnələşdirilməsinin əməkdaşlığın gözəl nümunəsi olduğunu deyib.

İstanbul Şəhər Teatrlarının direktoru ilə görüşdə "İblis" tamaşasının hazırlıq prosesindən bəhs edilib. Tamaşanın yaxın zamanlarda Muhsin Ertuğrul səhnəsində izləyicilərə təqdim olunacağı bildirilib.

G.Əfəndiyeva tamaşanın quruluşçu rejissoru – Azərbaycanın Əməkdar incəsənət xadimi, İstanbul Şəhər Teatrlarının direktor müavini Məlahət Abbasova ilə birlikdə məşq prosesini izləyərək, yaradıcı heyət ilə görüşüb. Qeyd edək ki, əsərin mətnini müasir türk dilinə uyğunlaşdıran dramaturq Hilmi Zəfər Şahin, baş məsləhətçisi filologiya üzrə fəlsəfə doktoru Sona Vəliyeva, tamaşanın bəstəkarı Azərbaycanın Xalq artisti Aygün Səmədzadədir.

# Gənc rəssamın sərgisi

### Xüsusi qayğıya ehtiyacı olan istedadlara dəstək

Bakı Rəsm Qalereyasında 2 aprel – "Dünya autizm məlumatlandırma günü" münasibətilə gənc rəssam Adəm Rəhimovun fərdi sərgisi keçirilib.



Azərbaycan Rəssamlar İttifaqının dəstəyi ilə təşkil olunan sərgidə Adəm Rəhimovun 50-yə yaxın yağlı boya və qrafika janrında çəkdiyi rəsmləri nümayiş etdirilib.

Qalereyanın direktoru Eldəniz Babayev bildirib ki, sənət ocağı uşaq, yeniyetmə və gənclərin yaradıcılığının inkişafı üçün müxtəlif layihələr həyata keçirir: "Bu sərginin təşkilində də məqsədimiz Adəm Rəhimovun simasında xüsusi qayğıya ehtiyacı olan gənclərə dəstək verməkdir".

Adəm Rəhimovun sənət dünyasından söz açan Xalq artisti Ramiz Məlik bildirib ki, onun Qarabağ mövzusunda təsvir etdiyi kompozisiya, təbiət mövzuları və natürmortlar çox rəngarəng və lakonikdir. Onun gənc olmasına baxmayaraq, özünü təsdiqləməsi çox təqdirəlayiqdir.

Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Ziyadxan Əliyev, Rəssamlar İttifaqının katibi, Xalq rəssamı Ağaəli İbrahimov və başqaları çıxış edərək müəllifin əsərlərini yüksək qiymətləndirərək ona yeni-yeni uğurlar arzulayıblar.

# İsveçdə "Tumurcuq" adlı Azərbaycan teatrı yaradılıb

İsveçin paytaxtı Stokholmda burada yaşayan gənc azərbaycanlılardan ibarət "Tumurcuq" adlı teatr fəaliyyətə başlayıb.

Bu münasibətlə keçirilən mərasimdə "Tumurcuq" teatrının bədii rəhbəri Sevinc Nəzərli teatr barədə məlumat verərək, gələcək planlardan söz açıb. Qeyd edib ki, yeni teatr vətəndən uzaqda, İsveçdə yaşayan azərbaycanlı gəncləri və uşaqları milli mədəniyyətimizlə yaxından tanış etməklə yanaşı, İsveç ictimaiyyətinə Azərbaycan incəsənəti və mədəniyyətini tanıtmağa kömək göstərəcək. O, İsveçdə fəaliyyət göstərən türk teatrı ilə əməkdaşlıq etdiklərini və diasporumuz tərəfindən dəstək aldığını bildirib.

Türk teatrının rəhbəri və rejissoru Burcu Ada Soysop "Tumurcuq" kollektivini təbrik edib. O, İsveçdə ilk türk teatrının 50 il öncə yaradıldığını vurğulayıb.

Sonra "Tumurcuq" teatrının gənc aktyorları tədbir iştirakçılarına təqdim olunub.



Onlar burada ana dilini və milli mədəniyyətimizi daha yaxşı tanımağa şəraitin yaradıldığını vurğulayıblar.

## UNESCO Beynəlxalq caz günü üçün tədbirlər hazırlayıb

UNESCO hər il aprelin 30-da qeyd olunan Beynəlxalq caz gününü Avstraliyada silsilə tədbirlərlə keçirməyi planlaşdırır.

UNESCO-nun baş direktoru Odri Azule və UNESCO-nun xoşməramlı səfiri Herbi Henkok Melburn Konservatoriyasında keçirilən mərasimdə tədbirlərin 190 ölkəni əhatə edəcəyini bəyan ediblər.

Qeyd olunub ki, Beynəlxalq caz günü çərçivəsində cazmenlərin ifası, tədris proqramları, ictimai xidmət təşəbbüslərinin həyata keçirilməsi nəzərdə tutulub. Avstraliyada keçirilən tədbirlərin kulminasiya nöqtəsi isə aprelin 30-da Hamer Hall İncəsənət Mərkəzində caz ulduzlarının iştirakı ilə keçiriləcək, BMT və UNESCO-nun saytlarında canlı yayımlanacaq böyük konsert olacaq.

Məşhur caz pianoçusu Herbi Henkok (ABŞ) və onu müşayiət edən Cems Morrison (Avstraliya) All-Star Global konsert zalında tamaşaçılara yeni və klassik caz nümunələrini təqdim edəcəklər. Digər caz ustaları – iranlı Cəvaş Arian, almaniyalı Till Brönner, çinli A Bu, rusiyalı İqor Butman, israilli Eli Degibri, yapon Eyijiro Nakaqava, livanlı Tarek Yamani də konsertdə iştirak edəcəklər.

Beynəlxalq caz günü UNESCO-nun xoşməramlı səfiri Herbi Henkokun təşəbbüsü ilə 2011-ci ildə təsis edilib.

## Muzey-qoruqların ərazisindəki su hövzələrində çimmək qadağandır

Rusiyalılar bundan sonra muzey-qoruqların hüdudları daxilində yerləşən su hövzələrində nə çimə, nə də kabab bişirə biləcəklər. Bu qadağa təbiət abidələri sayılan su ehtiyatlarının mühafizəsinə dair yeni qanunda təsbit olunub.

Su Məcəlləsinə və "Muzey fondu haqqında" qanuna dəyişikliklər muzey-qoruqlarda yerləşən çay, göl və digər su hövzələrinin sahil xətlərində olması qaydalarını dəqiqləşdirir.

Rusiyada 12 muzey-qoruğun su hövzələri ilə əlaqəsi var. Onların hamısında su hövzələrinin mühafizəsi ilə bağlı bənzər problemlər mövcuddur. Qoruq olan su obyektlərində vətəndaşların nəzarətsiz olması təkcə orada ekskursiyalar keçirməyə maneçilik törətmir, həm də təbiət abidələrinin qorunmasına təhlükə yaradır.

## "Qadın büstü" Amsterdamda tapılıb

### Pikassonun əsəri Fransada ərəb şeyxinin gəmisindən oğurlanmışdı



Pablo Pikassonun 1938-ci ildə çəkdiyi "Qadın büstü" əsəri 1999-cu ildə Fransada ərəb şeyxinin gəmisindən oğurlanmışdı. Uzun axtarışlardan sonra əsər Amsterdamda tapılıb. Rəssamın məşuqəsi Dora Maar təsvir olunan əsər 25 milyon avro dəyərində qiymətləndirilib.

Rəsm əsərinin sahibi Abdul Mohsen Abdulmalik onu 1980-ci ildə Nyu-Yorkda "Pace qalereyası"ndan alıb. 1999-cu il martın 11-də onun gəmisi Fransada gömrük nəzarətindən keçərkən əsər oğurlanmışdı. Sonradan məlum olub ki, həmin vaxt gömrük keçidində nəzarət kameraları söndürülübmüş. O vaxt sığorta şirkəti tərəfindən şeyxə 4 milyon avro ödənilmiş, rəsmdən isə bir xəbər çıxmamışdı.

Pikasso bu əsəri özü üçün çəkib, imzasını isə qoymayıb. Ancaq portretin arxasında "Pace qalereyası"nın möhürü olduğuna görə oğrular rəsm əsərini açıq bazarda sata bilməyiblər. Şeyx onu 80-ci illərdə həmin qalereyadan əldə edib.

## "Dünyanın xilaskarı" yoxa çıxıb

### İki il əvvəl hərracda 450 milyon dollara satılmışdı

Luvr Muzeyinin Birləşmiş Ərəb Əmirliklərinin Abu-Dabi şəhərindəki filialında nümayiş etdirilməsi nəzərdə tutulan dahi italyan rəssamı Leonardo da Vinçinin "Dünyanın xilaskarı" əsəri yoxa çıxıb.



Xarici informasiya vasitələrinin yazdığına görə, əsər hələ 2018-ci ilin sentyabrında Luvrun Abu-Dabi filialında nümayiş etdirilməli idi. Abu-Dabi Mədəniyyət və Turizm Departamentindən məsələyə aydınlıq gətirilməyib. Filialın adlarının çəkilməsini istəməyən əməkdaşlarının sözlərinə görə, onlar tablonun harada olduğunu bilmirlər.

Luvr Muzeyindən də bu barədə dürüst məlumat verilməyib. Fransanın hakimiyyət orqanları tablonun tapılacağına ümid bəsləyirlər.

Xatırladaq ki, İntibah dövrünün ən məşhur əsərlərindən sayılan "Dünyanın xilaskarı" tablosu 2017-ci ilin noyabrında Nyu-Yorkda, "Christie's" hərracında 450 milyon dollara satılmışdı. Bu, dünya tarixində hərracda satılmış ən bahalı əsərdir. Onu rusiyalı milyarder Dmitri Rıbolovlev hərraca çıxarmışdı. O, tablonu 2013-cü ildə isveçrəli art-diler İv Buvyedən 127,5 milyon dollara alıb. Bəzi məlumatlara görə, tablonun yeni sahibi Səudiyyə Ərəbistanı şahzadəsi Bədr bin Abdulla bin Məhəmməd bin Fərhan Al Səud olub. Lakin sonralar "Christie's"dən bildiriblər ki, tablo Əbu-Dabi Mədəniyyət və Turizm Departamentinə satılıb.

Luvr Muzeyinin Abu-Dabi filialı 2018-ci ilin noyabrında öz qapılarını sənətsevərlərin üzünə açıb. Bu, Luvrun Fransadan kənarda yeganə rəsmi filialıdır. Burada təqribən 600 incəsənət əsəri nümayiş etdirilir. Onların çoxu başqa muzeylərdən, o cümlədən Fransanın Luvr, Jorj Pompidu Mərkəzi, Versal və s. muzeylərindən alınıb.

**SƏBİNƏ**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Moskva pr, 1D.
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-57-72 (redaktor)
530-34-38 (məsul katib)
430-16-79 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5245
**Sifariş:** 1122
**Buraxılışa məsul:** Fariz Yunisli
Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.